AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpnews.az
www.olimpiyadunyasi.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 15 (1360), 17 - 23 aprel 2018-ci il
Qəzet 2001-ci ildən çıxır.

## *Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiçdən və Avropa Olimpiya Komitələrinin baş katibi Raffaele Pagnozzidən*

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident,

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Avropa Olimpiya Komitələrinin adından səmimi qəlbdən təbrik edirik.

Bu qələbə Sizin əvvəlki illərdə dövlət başçısı vəzifəsində həyata keçirdiyiniz mükəmməl fəaliyyətin yüksək qiymətləndirilməsi, həmçinin Azərbaycan xalqının ölkənin tərəqqisinin hərəkətverici qüvvəsi kimi Sizə bəslədiyi etimadın göstəricisidir. Məhz Sizin rəhbərliyinizlə Bakıda və ölkənin bütün regionlarında inkişaf və yenidənqurma, eləcə də müasirləşmə işlərinin geniş vüsət alması Azərbaycanı dünyanın diqqət mərkəzinə çevirib.

İcazə verin, bu fürsətdən istifadə edərək, Zati-aliləri, Sizinlə və Milli Olimpiya Komitəsi ilə aramızda olan, yüksək dəyərləndirdiyimiz dost münasibətlərinə görə dərin minnətdarlığımızı bildirək.

Ölkənizin Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsi, eləcə də növbəti Avropa Gənclər Olimpiya Festivalının məhz Bakıda keçirilməsi ölkənin Avropada güclü nüfuza malik olmasını təsdiq edir. Bu isə ölkənin müasir, dinamik inkişaf edən xarakterinin və burada necə əməksevər və dost insanların yaşadığının bariz nümunəsidir.

Ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayırıq. Bu il mayın 11-12-də Belqrad şəhərində Sizinlə görüşməyə ümidvarıq.

***Hörmətlə,***
***Yanes Kosyançiç***
***Avropa Olimpiya Komitələrinin prezidenti***

***Raffaele Pagnozzi***
***Avropa Olimpiya Komitələrinin baş katibi***

# Bakıda keçirilən gimnastika üzrə XXVI Avropa çempionatı başa çatdı



## *Azərbaycan gimnastı Avropa çempionu oldu*

Aprelin 12-15-də Bakıda ilk dəfə keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatına yekun vuruldu.

Milli Gimnastika Arenasında həm böyüklər, həm də gənclər arasında təşkil edilən bu yarışda 25 ölkədən ümumilikdə, 400-dən çox idmançı mübarizə apardı. Gimnastlar çempionatda 4 növdə - fərdi batut, sinxron batut, tamblinq və ikili mini-batutda qüvvələrini sınayırlar. Dörd gün davam edən Avropa çempionatında gimnastlarımız ölkəmizə bir qızıl və iki gümüş medal qazandırdılar. Azərbaycanı yığma komandasının üzvü Mixail Malkin tamblinq növündə bütün rəqiblərdən çox xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Qadınlar arasında batut gimnastikası üzrə yarışlarda təmsilçilərimiz Veronika Zemlyanaya və Svetlana Makştarova cütlüyü gümüş medala sahib oldular.

Aprelin 12-də Milli Gimnastika Arenasında batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatının təntənəli açılış mərasimi təşkil edildi. Əvvəlcə iştirakçı ölkələrin paradı keçirildi. Sonra Azərbaycan milli komandasının üzvü, ötən il tamblinq üzrə dünya yaş qrupları yarışlarının qalibi Mixail Malkin idmançılar adından çıxış etdi. İdmançımız bu yarışda ədalətli mübarizə aparacaqlarını, rəqibə hörmətlə yanaşacaqlarını və "təmiz idman" prinsiplərinə sadiqlik nümayiş etdirəcəklərini bildirdi.

*(ardı 2-ci səhifədə)*



## Avropa kubokunda 7 mükafat

Rusiyanın Sankt-Peterburq şəhərində gənclər arasında cüdo üzrə Avropa kuboku yarışı keçirilib. Turnirdə qitənin 17 ölkəsindən 259 cüdoçu mübarizə aparıb. Azərbaycan millisi yarışı 1 qızıl, 3 gümüş və 3 bürünc medalla başa vurub.

Yığmamız bu nəticə ilə komanda hesabında 3-cü yerə sahib çıxıb. Rusiya və Yaponiya cüdoçuları müvafiq olaraq, birinci, ikinci yeri tutublar.

## Bədii gimnastlarımız Polşadan 2 medalla qayıdıblar

Azərbaycanın bədii gimnastika üzrə yığma komandasının gənc üzvləri Nərminə Səmədova və Nərmin Bayramova Polşanın paytaxtı Varşavada keçirilən "İrina Cup" yarışlarında uğurla çıxış ediblər.

Gənclər arasında mübarizə aparan gimnastımız Nərminə Səmədova bütün alətlər üzrə xalların cəminə əsasən, çoxnövçülükdə gümüş medal əldə edib.

Digər təmsilçimiz Nərmin Bayramova isə yeniyetmə gimnastlar arasında öz qüvvəsini sınayıb. Halqa ilə hərəkətlərdə fərqlənən gimnastımız, komandanın hesabına ikinci gümüş medalı yazdırıb.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

## *Sağlam gənclik uğurlarımızın təməlidir*

Səh. 5

## *Anons*

Atletimiz dünya birinciliyinin qalibi oldu

*Paytaxtımız beynəlxalq turnirə ev sahibliyi edəcək*

Ölkəmizdə ilk dəfə Ədalətli İdman Günü qeyd olunub

Səh. 3

Millimizin üzvü bürünc medal qazandı

*"Synergy Baku"dan Mərakeşdə uğurlu çıxış*

Səh. 4

Çempiondan asan qələbə

*"Şahin" hərbi idman oyununun qalibləri mükafatlandırıldı*

Səh. 6

Bir görüşün tarixi, yaxud milyonların fərqli yanaşması

*"Neftçi"dən əzmkar qələbə*

Yığmamız FİFA reytinqində irəlilədi

Səh. 7

**Futbol üzrə Dünya Çempionatına 58 gün qalır**

FIFA WORLD CUP RUSSIA 2018

## *Olimpizm*

### FİA-nın nümayəndə heyəti Beynəlxalq Olimpiya Komitəsində olub



Beynəlxalq Avtomobil Federasiyasının prezidenti (FİA) Jan Todt başda olmaqla bu qurumun nümayəndə heyəti Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Lozannada yerləşən mənzil-qərargahında olub. Nümayəndə heyəti Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax və baş direktoru Kristof de Kepper ilə görüşüb.

Tərəflər Beynəlxalq Olimpiya Komitəsi ilə əməkdaşlıq məsələləri, o cümlədən "Smart Cities" proqramı üzrə FİA-nın çoxsaylı təşəbbüslərini müzakirə ediblər.

FİA və BOK 2018-ci il gənclər arasında Olimpiya Oyunlarının keçirilməsində əməkdaşlıq barədə razılığa gəliblər. Görüşdə FİA-nın gender bərabərliyinin təmin edilməsinə və anti-dopinq qaydalarına riayət edilməsinə dair öhdəlikləri də müzakirə olunub.

Jan Todt deyib: "FİA və BOK arasında dinamik inkişaf edən sıx münasibətlər qurulub. Biz gələcək işimiz üçün böyük proqram nəzərdə tuturuq. Bu bizə məqsəd və vəzifələrimizi yeni auditoriyaya çatdırmaq imkanı verəcək".

### Beynəlxalq qurumun 27 üzvü günahlandırılır

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 27 üzvünün adı korrupsiya qalmaqalında hallanır. Bu barədə "İnside the Games" portalı xəbər yayıb.

Yayılan məlumata görə, həmin adamlar Pxençxan şəhərini rüşvət müqabilində XXIII Qış Olimpiya Oyunlarına ev sahibliyində dəstəkləyiblər.

BOK üzvlərinin siyahısı sabiq Cənubi Koreya prezidenti Li Myon Bakın korrupsiya qalmaqalı ilə bağlı araşdırması zamanı ortaya çıxıb. Qalmaqalda, həm də ölkənin tanınmış "Samsung" şirkətinin də adı hallanır. Belə ki, şirkət Pxençxana dəstək müqabilində BOK üzvlərinə müxtəlif dividentlər təklif edib.

Bu işin açılmasında Bynəlxalq Yüngül Atletika Federasiyasının (İAAF) sabiq prezidenti Lamin Diakın oğlu Papa Massat Diakın böyük rolu olub. Kiçik Diakın sözlərinə görə, bu işə görə ona 12,5 milyon dollar vəd veriblərmiş.

Müəyyən olunub ki, BOK-un 27 üzvündən 12-si Afrika qitəsindən olanlardır. Hələ ki, yüksək vəzifəli məmurların adı açıqlanmır.

Gimnastika

(əvvəli 1-ci səhifədə)

# Bakıda keçirilən gimnastika üzrə XXVI Avropa çempionatı başa çatdı

## Azərbaycan gimnastı Avropa çempionu oldu

Açılış mərasimində çıxış edən gənclər və idman naziri Azad Rəhimov Azərbaycanın növbəti dəfə mötəbər yarışa ev sahibliyi etməsindən məmnunluğunu ifadə etdi. İdmançılara uğurlar arzulayan nazir Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını dedi: "Ölkəmiz irimiqyaslı beynəlxalq turnirlərə yüksək səviyyədə ev sahibliyi edir, idmançılarımız Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edirlər. Bütün




bunlar beynəlxalq idman qurumlarının diqqətindən yayınmır və onlar nüfuzlu yarışların təşkilini heç bir tərəddüd etmədən ölkəmizə həvalə edirlər".

Azərbaycanda idmanın digər növləri kimi, gimnastikanın da sürətlə inkişaf etdiyini diqqətə çatdıran Azad Rəhimov dedi: "2002-ci ildə Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsindən sonra bu təşkilat yenidən quruldu, gimnastikanın inkişafında dönüş yarandı. Ötən il 15 illiyini qeyd edən Azərbaycan Gimnastika Federasiyası digər növlər kimi batut və tamblinqin də inkişafına xüsusi diqqət yetirir. Bu sahədə edilən uğurlar göz qabağındadır. Federasiyanın məqsədyönlü və səmərəli fəaliyyəti nəticəsində idmanın bu növündə kütləvilik müşahidə edilir".

Azərbaycan Prezidenti İlham Əliyevin və birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizdə idmana göstərdikləri yüksək diqqət və qayğıdan danışan gənclər və idman naziri Avropa çempionatının təşkilinin ölkəmizdə gimnastikanın inkişafına təkan verəcəyini dedi.

Açılış mərasimində çıxış edən Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov qitə çempionatının Bakıda təşkil olunmasından məmnunluğunu bildirdi: "Ötən il Avropa Gimnastika İttifaqının prezidenti seçildim. Sevindirici haldır ki, həmin vaxtdan sonra ilk Avropa çempionatı məhz doğma Azərbaycanda keçirilir. Təşkilat Komitəsi yarışa yüksək peşəkarlıq və böyük səylə hazırlaşıb".

Çempionatın əhəmiyyətini yüksək qiymətləndirən Fərid Qayıbov bildirdi ki, yeniyetmələrin yarışı bu il keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına, böyük gimnastların mübarizəsi isə 2019-cu ildə təşkil olunacaq II Avropa Oyunlarına lisenziya qazandırması baxımından əhəmiyyətlidir.

İştirakçılara uğurlar arzulayan Avropa Gimnastika İttifaqının prezidenti çempionatı açıq elan etdi.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

Açılış mərasiminin bədii hissəsində tamaşaçılar meydançada hər zaman görməyə alışdıqları gimnastika alətləri ilə yanaşı, basketbol səbətinə də təsadüf etdilər. Öz tarixi izlərini ABŞ-dan götürən basketbol illər öncə məhz elə gimnastika dərslərinin tədrisi üçün icad olunub. Təsadüfi deyil ki, batut gimnastikasının yaranmasının və inkişafının da təməli ABŞ-da qoyulub. İki fərqli idman növünün tarixdə birləşən kökləri bu çempionatın açılış mərasimi üçün başlıca ideya olub. Məhz açılış mərasiminin bədii hissəsi "Bakıda Amerikasayağı "uçuş" adlandırılıb.

Çempionatın açılış mərasimini digərlərindən fərqləndirən əsas məqamlar bununla bitmədi. Belə ki, bu dəfə kompozisiyada təkcə gimnastika növləri üzrə yığma komandaların üzvləri deyil, həm də batut gimnastikası üzrə Texniki Komitənin nümayəndələri də iştirak etdilər. Yarışın ən maraqlı personajı isə maskot - "Qur-Qur" oldu. Qeyd edək ki, maskotu canlandırmaq üçün batut gimnastikasının vətəni ABŞ-dan Skot Hesinqton və Berri Anderson kimi peşəkarların köməyindən istifadə olunub.

### Komanda yarışlarının medalçıları bəlli oldu

Aprelin 12-də Milli Gimnastika Arenasında keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatının ilk qalibləri müəyyənləşdi. Medallar yeniyetmələr arasında batut gimnastikası üzrə komanda yarışlarında öz sahiblərini tapdı.

Oğlanların mübarizəsində Belarus millisi Avropa çempionu adına layiq görüldü. Böyük Britaniya yığması yarışı ikinci, Rusiya isə üçüncü pillədə başa vurdu. Qızların yarışında isə birinci yerə Rusiya komandası layiq görüldü. Belarus gümüş, Yunanıstan isə bürünc medala sahib oldu.

Avropa çempionatının ikinci günündə - aprelin 13-də komanda yarışlarının qalibləri müəyyənləşdi. Həmin gün həm gənclər, həm də böyüklər arasında bütün növlər üzrə təsnifat mərhələləri və komanda hesabında final yarışları keçirildi. İkili mini-batut üzrə yeniyetmə oğlanlardan ibarət komanda yarışında çempion adını Rusiya qazandı. İspaniya yığması gümüş, Portuqaliya komandası isə bürünc medala layiq görüldü. Qızların mübarizəsində də birinci yer Rusiya komandasına məxsus idi. İkinci yerdə Portuqaliya yığması, üçüncü pillədə isə İspaniya komandası qərarlaşdı.

Böyüklər arasında batut yarışında Belarusdan olan kişi gimnastlar birinci yeri tutdular. Rusiya təmsilçiləri ikinci, Ukrayna gimnastları isə üçüncü yerə sahib oldular. Qadınların yarışında da qızıl medala Belarus millisi layiq görüldü. Fransa yığması gümüş, Portuqaliya komandası isə bürünc medalları aktivlərinə yazdırdılar.

Yeniyetmələr arasında tamblinq üzrə oğlanların yarışında qızıl medallara Böyük Britaniya millisi sahib oldu. Fəxri kürsünün ikinci pilləsində Rusiya, üçüncü yerdə isə Portuqaliya komandaları qərarlaşdı. Qızların mübarizəsində də çempion adını Böyük Britaniya millisi qazandı. Rusiya yığması gümüş, Fransa millisi isə bürünc medallara layiq görüldü.

Aprelin 14-də yeniyetmə və böyük gimnastlar sinxron və fərdi proqram üzrə təsnifat mərhələlərində çıxış etdilər. Avropa və dünya çempionatlarının formatına əsasən, fərdi proqramda təsnifat iki mərhələdən ibarət olduğundan batut gimnastikası üzrə fərdi yarışlarda finaldan əvvəl ilk mərhələdə yaxşı nəticə göstərmiş 24 idmançı arasında yarımfinal keçirildi. Yarışların 3-cü günündə həm də tamblinq növündə böyüklər arasında komanda yarışlarının qalibləri müəyyənləşdi.

Kişilərin yarışında Rusiya komandası qızıl medalın sahibi oldu. Böyük Britaniya gümüş, Danimarka isə bürünc medal qazandı. Qadınların yarışında da britaniyalılar çempion adına layiq görüldülər. Rusiya yığması ikinci, Fransa yığması isə üçüncü yeri tutdu.

### Kişi gimnastımız qızıl, qadın gimnastlarımız gümüş medala sahib oldular

Aprelin 15-də Milli Gimnastika Arenasında keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatında batut növündə gənclər və böyüklər arasında fərdi yarışların qalibləri bəlli oldu. Gənc qızlar arasında Belarus təmsilçisi Katerina Yerşova birinci və onun həmyerlisi Aleksandra Stoyarova ikinci yerə çıxdılar. Yunanıstanlı Anastasiya Papadimitriou isə üçüncü yerlə kifayətləndi. Oğlanların yarışında da qızıl medalı Belarus təmsilçisi qazandı. Belə ki, İvan Litvinoviç fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. İngiltərəli Koreo Valks ikinci və onun həmyerlisi Andrey Stam bürünc medal qazandılar.

Kişilər arasında birinci yerə portuqaliyalı Dieqo Karvalho çıxdı. Gümüş medalın sahibi belaruslu Nikita Mernix oldu. İlk üçlüyü isə fransalı Alan Morante tamamladı. Qadınların yarışında rusiyalı Yana Pavlova fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Belaruslu Anna Qançirova ikinci, böyük britaniyalı Katrin Qrisko isə üçüncü yerə sahib çıxdı.

Yarışların son günündə ikili-mini batut növü üzrə gənclər və böyüklər arasında qaliblərin adı açıqlandı. Gənc oğlanların yarışında Böyük Britaniya təmsilçisi Royan Dibayn birinci, rusiyalı Timafeyn Lazutin ikinci, portuqaliyalı Enrike Moreyra üçüncü oldu. Qızların yarışında isə qızıl medalı İspaniya gimnastı Melania Rodriqes, gümüş medalı rusiyalı Aleksandre Bonartseva, bürünc medalı Portuqaliya təmsilçisi Sara Qvido qazandı. Azərbaycan gimnastı Selcan Maqsudova beşinci yeri tutdu. Hakimlər idmançımızın çıxışını 63,900 balla qiymətləndirdilər.

İkili-mini batut üzrə kişilərin yarışında rusiyalı Vasiliy Makarskiy birinci, isveçli Yonans Nordfors ikinci, portuqaliyalı Dieqo Qalbaro isə üçüncü yerə çıxdı.

Tamblinq üzrə qızların yarışında rusiyalı Diana Bratkova Avropa çempionatının qızıl medalına layiq görüldü. Böyük Britaniyalı Cesika Breyn gümüş, onun həmyerlisi Keytlin Laffert isə üçüncü oldu. Oğlanların tamblinq yarışında Belarus təmsilçisi İvan Litfinoviç qızıl, böyük britaniyalı gimnast Kori Volks gümüş və onun həmyerlisi Edriyu Stamp bürünc medal qazandı.

Qadınların tamblinq yarışında Böyük Britaniya gimnastı Lusie Kolbeq birinci və onun həmyerlisi Meqan Kelli ikinci, rusiyalı Viktoriya Danilenko isə üçüncü yerə sahib çıxdılar.

Batut üzrə gənclər arasında sinxron cütlüklərin yarışında Belarus təmsilçiləri Sebastyan Stankeviç və Andrey Bulov fərqləndilər. Avropa çempionatının gümüş medalını portuqaliyalı Martins Qousalo və Ruben Tavareş qazandı. Hollandiya təmsilçiləri Maykl Abraxams və Lük Svinkels isə fəxri kürsünün üçüncü pilləsində yer aldılar.

Batut gimnastikası üzrə kişilər arasında sinxron cütlüklərin yarışında birinci yerə Belarus təmsilçiləri Alex Rabtsau və Vladislav Qançirov çıxdılar. İkinci yerin sahibi rusiyalı gimnastlar Mixal Melnik və Serqey Azaryan oldu. Bürünc medala Fransa təmsilçiləri Pier Qolcou və Farux Coşua sahib çıxdılar.

Azərbaycan yığmasının üzvü Mixail Malkin batut, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatının qızıl medalını qazandı. İdmançımız tamblinq yarışında hakimlərdən 77,400 bal alaraq Avropa çempionu adına layiq görüldü.

İkinci yerdə danimarkalı Adam Mathiesen, üçüncü yerdə isə rusiyalı Vadim Afanasyev qərarlaşdı.

Azərbaycan komandasına ikinci və üçüncü medalları batut gimnastikası üzrə sinxron cütlüklərdə qadın gimnastlarımız Veronika Zemlianaia və Sviatlana Makştarova qazandırdılar. Təmsilçilərimiz Avropa çempionatının gümüş medalına sahib oldular. Həmin növdə birinciliyi Belarus idmançıları Anita Makulova və Desislava Manalova qazandılar. Ukrayna təmsilçiləri Sviatlana Malkova və Nataliya Moskvina cütlüyü isə üçüncü yerə çıxdılar.

Yarışın sonuncu günündə Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov bayrağı 27-ci Avropa çempionatına ev sahibliyi edəcək İsveç Gimnastika Federasiyasının nümayəndələrinə təqdim edib.

Məlumat üçün bildirək ki, batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatında yeniyetmə gimnastlar bu il keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına, böyük gimnastlar isə 2019-cu ildə təşkil olunacaq II Avropa Oyunlarına lisenziya əldə ediblər.

### Altay Həsənov: "26-cı Avropa çempionatı Azərbaycanın və Avropanın idman həyatında mühüm hadisədir"

Azərbaycan Gimnastika Federasiyasının (AGF) vitse-prezidenti Altay Həsənov Bakıda keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatı ilə bağlı fikirlərini jurnalistlərlə bölüşüb.

AGF-nin vitse-preidenti deyib: "Milli Gimnastika Arenasında keçirilən batut, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatı Azərbaycanın və Avropanın idman həyatında növbəti mühüm hadisədir. Turnirdə 25 ölkədən 400-dən çox idmançı iştirak edir. Bizim belə mötəbər yarışları keçirmək üçün artıq böyük təcrübəmiz var. İdmançılarımızın nəticələri ilə bağlı deməliyəm ki, qarşımıza qoyduğumuz əsas məqsədə çatmışıq. İdmançılarımız Avropa Oyunlarına lisenziya qazanıblar. Komandamızın üzvü Mixail Malkinin Avropa çempionatının qızıl medalını qazanması isə hamımızı çox sevindirir. Sinxron tullanmalar üzrə təmsilçilərimiz Veronika Zemlanaya və Svetlana Makştareva da çox yaxşı çıxış etdilər və gümüş medal qazandılar. Hesab edirik ki, Avropa çempionatı Bakıda yüksək səviyyədə təşkil olunub.

Federasiyanın yeniliklərə daim açıq olduğunu bildirən Altay Həsənov deyib: "Biz belə yarışların təşkilində yenilikləri daim nəzərə alırıq. Bu dəfə də yeniliklər çox idi. Belə ki, Avropa çempionatının maskotunu ABŞ-dan dəvət olunmuş peşəkarlar canlandırırdı. Tribunalar demək olar ki, dolu idi. Burada valideynlərlə yanaşı, xarici qonaqlar və turistlər də çoxdur. Bu bizim arzularımızın reallaşması deməkdir. Artıq medallar var və buna çox sevinirik. Bütün bunlar federasiyanın son 15 ildə həyata keçirdiyi düzgün fəaliyyətin nəticəsidir. Bu nəticələrin əldə edilməsində əlbəttə, Bakı-2015 Avropa Oyunlarının da xüsusi rolu vardır".

Altay Həsənovun sözlərinə görə, bu il onları daha iki mühüm yarış gözləyir. Belə ki, aprelin sonlarında Bakıda növbəti dəfə bədii gimnastika üzrə Dünya kuboku yarışları və AGF Junior Trophy yarışları keçiriləcək. Həmçinin Bakıda Beynəlxalq Gimnastika Federasiyasının Konqresi təşkil ediləcək.




### Fərid Qayıbov: "Azərbaycan Gimnastika Federasiyasının təşkil etdiyi yarışlar yenilikləri və mükəmməlliyi ilə fərqlənir"

"Avropa Gimnastika İttifaqı (UEG) üzv ölkələrdə gimnastikanın inkişafı və təşviqi istiqamətində ciddi tədbirlər həyata keçirir. Hazırda əsas məqsəd gənclərin idmana, xüsusilə gimnastikaya cəlb olunması məsələsidir. UEG gənclər arasında gimnastikaya marağın daha da artırılması üçün səylərini əsirgəmir. Hazırda məqsədimiz gimnastikanın izləyici auditoriyasını genişləndirməkdir".

Bu fikirləri Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov jurnalistlərə müsahibəsində deyib.

Bakıda keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatı və UEG-in tətbiq etdiyi yeniliklər barədə məlumat verən Fərid Qayıbov bildirib: "Batut gimnastikası üzrə Avropa çempionatı Bakıda ilk dəfə keçirilir. Bu yarış UEG prezidenti kimi karyeramda ilk qitə çempionatıdır. Çox sevinirəm ki, Avropa çempionatı Bakıda keçirildi. Buna görə də ikiqat məsuliyyət hissi daşıyıram. Təşkilat Komitəsi öz işini yüksək səviyyədə görüb. Azərbaycan Gimnastika Federasiyasının təşkil etdiyi yarışlar yenilikləri və mükəmməlliyi ilə fərqlənir. Hamı bilir ki, ölkəmiz mötəbər beynəlxalq turnirlərə yüksək səviyyədə ev sahibliyi edir, idmançılarımız Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edirlər. Beynəlxalq idman qurumları nüfuzlu yarışların təşkilini məmnunluqla ölkəmizə həvalə edirlər".

Batut gimnastikasının daha da inkişaf etdirilməsinin UEG-in əsas məqsədlərindən biri olduğunu vurğulayan Fərid Qayıbov deyib: "Avropa çempionatında UEG-in 50 üzvündən yalnız 25-i iştirak edir. Azarkeşlərin bu idmana marağı böyükdür. İnsanlar gimnastların çıxışlarına həvəslə və maraqla tamaşa edirlər. Hərçənd ki, bu, tamamilə yeni idman növüdür. Qeyd edim ki, 200-dən çox bilet əcnəbilərə satılıb. Bu, bir növ idman turizmidir. İdman turizmi əsasən futbola görə inkişaf edir. Amma gimnastikanın da burada öz payı var. Çempionatla əlaqədar Avropa Gimnastika İttifaqının fəxri prezidenti Jorj Gelzek, eləcə də Fransa, Portuqaliya və Latviya gimnastika federasiyalarının prezidentləri Bakıya gəliblər. Rusiyadan xeyli sayda azarkeş gəlib. Qərbi Avropadan da tamaşaçılar var. Xüsusən, xarici KİV-lərin bu çempionata marağı böyükdür".

Gimnastikanın gələcək inkişafından da danışan UEG prezidenti bildirib: "UEG İcraiyyə Komitəsi müntəzəm olaraq hansı dəyişikliklərin lazım gəldiyini müzakirə edir. Maliyyə, avadanlıq və s. vasitələrə ehtiyacı olan milli federasiyalara tərəfdaşların da cəlb edildiyi yardım proqramı işə salınıb. Beləliklə, bütün Avropada gimnastikanı inkişaf etdirməyi planlaşdırırıq. Həmçinin yarışların formatının dəyişdirilməsi barədə düşünmək lazım gəlir. Qısası, qarşıda görməli olduğumuz işlər çoxdur".

### Mixail Malkin: "Azərbaycan bayrağını ucaltmaq üçün daim qalib gəlməyə çalışacağam"

Azərbaycanlı gimnast, batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatının qızıl medalçısı Mixail Malkin qələbə sevincini KİV nümayəndələri ilə bölüşüb: "Azərbaycan gimnastikası tarixində tamblinq üzrə ilk qızıl medalı mən qazandım. İnanılmaz və gözəl hisslər keçirirəm. Bu qələbə mənim üçün çox əhəmiyyətli idi. Üzərimə düşən bütün məsuliyyəti başa düşürdüm. Əlbəttə, doğma məkan, dostlarım mənə stimul, güc verdi. Doğma divarlar arasında çıxış etmək daha çətin və məsuliyyətlidir. Azarkeşləri xüsusi vurğulamaq istəyirəm. Onlar bizə çox dəstək oldular. Çempionatda idmançılar arasında sağlam mübarizə və dostluq ab-havası hökm sürürdü. Axı uzun illərdir ki, bir-birimizi tanıyırıq. Üstəlik, turnirin maskotu - məzəli personaj Qur-qur da hamımızı əyləndirdi.

Azərbaycan bayrağını ucaltmaq üçün daim qalib gəlməyə çalışacağam. Arzu edirəm ki, himnimiz daim səslənsin".

Mixail Malkin bu qələbəsini onu böyüdüb boya-başa çatdıran nənəsinə həsr etdiyini deyib.

*Səadət Hakıyeva*

*Taekvondo*

# Atletimiz dünya birinciliyinin qalibi oldu



Tunisin Hammamet şəhərində gənc taekvondoçular arasında keçirilən dünya birinciliyi başa çatıb. 120 ölkədən 962 idmançının iştirak etdiyi yarışda Azərbaycan taekvondoçuları da qüvvələrini sınayıblar. Komandamız yarışda 1 qızıl və 1 gümüş medala sahib olub. Millimizə ilk medalı təmsilçimiz Xanoğlan Kərimov qazandırıb. 51 kq çəki dərəcəsində dayanq üzərinə çıxan idmançımız Almaniya, Livan, Argentina və Türkiyə təmsilçilərinə qalib gələrək, yarımfinala yüksəlib. Finala vəsiqə uğrunda mübarizədə Çin Taypeyindən olan taekvondoçunu da mübarizədən kənarlaşdıran Xanoğlan həlledici qarşılaşmada iranlı rəqibinə məğlub olaraq, yarışı gümüş medalla başa vurub.

Yarışın üçüncü günündə Azərbaycan yığması daha bir medal qazanıb. Həmyerlimiz Cavad Ağayev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Belə ki, 63 kq çəki dərəcəsində mübarizə aparan taekvondoçumuz ilk döyüşündə pakistanlı Əşrəf Əhmədə heç bir şans verməyib. O, rəqibini 29:6 hesabı ilə məğlub edib. Təmsilçimiz ikinci görüşündə amerikalı Xalfani Harris üzərində əzmkar qələbə qazanıb - 7:6. Cavad Ağayev ardınca koreyalı Ho-Jun Jini (17:11) və efiopiyalı Tariku Qirmanı (20:3) mübarizədən kənarlaşdırıb. Yarımfinala vəsiqə qazanan idmançımız növbəti mərhələdə Erfan Muradi (İran) ilə üz-üzə gəlib. Bu görüş də idmançımız üçün uğurlu olub (17:12) və o mərhələ adlayıb.

Final qarşılaşması isə daha çətin keçib. İtaliyalı Qabriel Kaulo ilə qarşılaşan Cavad bu dəfə də qələbə seriyasını davam etdirib. Rəqibini 14:13 hesabı ilə məğlub edən həmyerlimiz dünya çempionu tituluna yiyələnib. O, bununla Kaulodan lisenziya yarışındakı məğlubiyyətin revanşını da alıb.

Beləliklə, millimiz yarışda bir qızıl və bir gümüş medala sahib çıxıb. Komandamız bu nəticə ilə dünya çempionatını 5-ci sırada tamamlayıb.

Qeyd edək ki, dünya birinciliyindən əvvəl Minayə Əkbərova (44 kq) Argentinada təşkil ediləcək Yeniyetmələrin Yay Olimpiya Oyunlarına lisenziyaya sahib olmuşdu.

*Cüdo*

# Paytaxtımız beynəlxalq turnirə ev sahibliyi edəcək

Aprelin 19-da Bakı İdman Sarayında polkovnik-leytenant Raquf Orucov və digər aprel şəhidlərinin xatirəsinə həsr olunmuş ikinci beynəlxalq cüdo turniri start götürəcək. Yarış "Azman Holdinq"in tərkibinə daxil olan "Cudo Klub 2012" idman klubunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə təşkil olunacaq. Turnirdə yaşı 21-dək (U-21) olan, 1998-2003-cü illər təvəllüdlü oğlan və qızlardan ibarət klub komandaları iştirak edəcəklər. İkinci "Raquf Orucov Kuboku" ("Raguf Orujov Cup") turnirində Bakı şəhərini və bölgələrimizi təmsil edən 16 komanda ilə birlikdə Türkiyə, Rusiya, Qazaxıstan və Gürcüstanın klub komandalarının da iştirakı gözlənilir.

Şəhidlərimizin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq keçirilən turnirin məqsədi gənclərə vətənpərvərlik hissi və döyüş ruhu aşılamaq, onların Vətənin müdafiəsinə hazırlıq səviyyəsini artırmaq, həmçinin idmançılar arasında dostluq və yoldaşlıq hisslərini möhkəmləndirməkdir.




## Ölkəmiz beynəlxalq turnirə ev sahibliyi etdi

"Sərhədçi" İdman Olimpiya Kompleksində cüdo üzrə Türk Şurası Universitet İdman Oyunları turniri keçirilib. İki gün davam edən mötəbər yarışda Azərbaycan, Türkiyə və Qazaxıstan cüdoçuları medallar uğrunda mübarizə aparıblar. Beynəlxalq turnirin ilk günündə bütün çəki dərəcələrində qaliblərin adına aydınlıq gəlib.



Milli komandamızın heyətində Kəramət Hüseynov (60 kq), İlkin Babazadə (66 kq), Telman Vəliyev (73 kq), Fəqan Quluzadə (81 kq), Firudin Dadaşov (90 kq), Cəlil Şükürov +100 kq), Aişə Qurbanlı (48 kq), Günel Həsənli (78 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal əldə ediblər.

Növbəti gün cüdoçular komanda yarışlarında qüvvələrini sınayıblar.

Beynəlxalq turnirdə Türkiyə cüdoçuları birinci yeri tutublar. Azərbaycan cüdoçuları isə ikinci olublar.

## Millimiz İsrailə 10 idmançı ilə yollanır

Aprelin 26-da İsrailin paytaxtı Təl-Əvivdə cüdo üzrə Avropa çempionatı start götürəcək. 3 gün davam edəcək yarışda Azərbaycan cüdoçuları da mübarizə aparacaqlar.

Artıq səfərə yollanacaq idmançılarımızın adları açıqlanıb. Məşqçilər korpusu yarışda 4 kişi, 6 qadın cüdoçunu sınayacaq.

# Formula-1

## Növbə Bakıya çatdı

"Red Bull Racing"in pilotu Daniel Rikkardo Formula 1 üzrə dünya çempionatının üçüncü yarışının - Çin Qran-Prisinin qalibi olub.

Aprelin 15-də pilotlar Şanxayda 5451 metrlik trasda 56 dövrə vurublar. Daniel Rikkardo 1 saat 35 dəqiqə 36,38 saniyəlik nəticə ilə aktivinə 25 xal yazdırıb. Liderdən 8,894 saniyə geri qalan Valtteri Bottas ("Mercedes") yarışı 18 xalla ikinci pillədə yekunlaşdırıb. İlk üçlüyü liderdən 9,637 saniyə sonra finişə çatan Kimi Raykonen ("Ferrari", 15 xal) tamamlayıb.



Pilotların yarış cədvəlinə 54 xalla Sebastian Fettel başçılıq edir. Luis Hamilton 45 xalla ikinci, Valtteri Bottas 40 xalla üçüncü pillədə qərarlaşıblar.

Konstruktorlar kubokunda isə "Mercedes" 85 xalla birinci, "Ferrari" 84 xalla ikinci, "Red Bull Racing" isə 55 xalla üçüncü pillədə yer alıb.

Çempionatın növbəti - dördüncü yarışı olan Azərbaycan Qran-Prisi aprelin 27-29-da Bakıda keçiriləcək.

* * *

Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran-prisi ərəfəsində hər gün məşhur DJ-lərin "Baku Crystal Hall"da gecədən səhərədək davam edəcək musiqili əyləncə proqramlarında yarışa biletləri olmayanlar da iştirak edə biləcəklər.

Bunun üçün əyləncə həvəskarları onlayn şəkildə və ya şəhərdəki müvafiq kassalara yaxınlaşaraq gecə proqramı üçün bilet əldə edə bilərlər. Biletlər bir gün üçün etibarlıdır. Bu biletlərin bir günlük qiyməti "Golden circle" adlanan səhnəyə ən yaxın yer üçün 50, digər yerlər üçün isə 30 manatdır.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai yarış həftəsonunun şəhər sakinləri üçün xoş əyləncə imkanları bəxş edəcəyini bildirərək deyib: "Bu-ilki Azərbaycan Qran-prisinin dünya ulduzlarının iştirakı ilə keçiriləcək zəngin əyləncə proqramına - Afro-jack, Axwell Ingrosso və Martin Solveyq kimi DJ-lərin daxil edilməsi olduqca sevindirici haldır. Həm dünya ulduzlarının axşam konsertləri, həm də məşhur DJ-lərin gecə proqramları avtoidman həvəskarları ilə yanaşı, əyləncəsevərlər arasında da böyük marağa səbəb olub. Əvvəlki illərdən fərqli olaraq, bu il DJ-lərin musiqili əyləncə proqramlarını arzuedən hər kəs üçün açıq etməklə çalışdıq ki, Formula 1 yarışı ərəfəsində Bakıda yaşanacaq festival ab-havasından heç kim kənarda qalmasın".

Nigar Arpadarai bildirib ki, Formula 1 azarkeşləri yarış həftəsonuna bilet almaqla bütün imkanlardan istifadə edə və əyləncələrə qatıla biləcəklər. Tam bilet sahibləri aprelin 27-29-da axşam saatlarında hər gün biri olmaqla müvafiq ardıcıllıqla səhnəyə çıxacaq Jamiroquai, Kristina Aqillera və Dua Lipanın konsertlərində, həmçinin bu konsertlərin ardınca DJ-lərin iştirakı ilə keçiriləcək əyləncəli gecə proqramlarında iştirak edə biləcəklər.

Qeyd edək ki, yarış həftəsi ərzində Neftçilər prospektinin Azneft dairəsindən "Baku Crystal Hall"dək hissəsi ümumi istifadə üçün bağlı olacağından burada yalnız icazə sənədinə sahib nəqliyyat vasitələrinin hərəkətinə icazə veriləcək.

* * *

Aprelin 27-29-da Bakının mərkəzi küçələrində keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi ilə əlaqədar olaraq, Bakı metropoliteni gücləndirilmiş iş rejimində çalışacaq.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin müraciətinə əsasən, "Bakı Metropoliteni" QSC-nin rəhbərliyi yarışın keçirildiyi günlərdə metropolitenin iş qrafikində dəyişikliklər etmək barədə qərar verib. Məqsəd tamaşaçıların, habelə Dənizkənarı Bulvarda təşkil ediləcək əyləncə və istirahət-yönümlü kütləvi sosial-mədəni tədbirlərin iştirakçıları və təşkilatçılarının ictimai nəqliyyatdan istifadəsini asanlaşdırmaq, rahatlığını təmin etməkdir.

Bakı metropoliteni "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti ilə sıx əlaqəli fəaliyyət göstərərək, qeyd edilən tarixlərdə yarışın və tədbirlərin keçirildiyi məkanlara yaxın olan "İçərişəhər" və "28 May" stansiyalarına sərnişinlərin, zərurət yaranacağı təqdirdə, gecə saat 02:00-a qədər daxil olmasını və müvafiq marşrutlar üzrə hərəkət etməsini təmin edəcək.



# Azərbaycan Kikboksinq Federasiyasında yeni təyinat

Azərbaycan Kikboksinq Federasiyasında (AKF) yeni təyinat olub. "Euro Fight" klubunun direktoru Aydın Əhmədov AKF-nin peşəkarlar üzrə vitse-prezidenti vəzifəsini icra edəcək. AKF-nin prezidenti, millət vəkili Adil Əliyev bildirib ki, qurumun fəaliyyətinin gücləndirilməsi istiqamətində bu cür təyinatlar gələcəkdə də olacaq: "Sıralarımız genişlənir. "Euro Fight" klubunun direktoru Aydın Əhmədov Azərbaycan Kikboksinq Federasiyasında peşəkarlar üzrə vitse-prezident vəzifəsinə təyin olunub. Bundan sonra da federasiyamızın fəaliyyətinin gücləndirilməsi istiqamətində belə təyinatlar olacaq. Əsas məqsəd cəmiyyətdə idmana olan marağı artırmaqdır".



Qeyd edək ki, Aydın Əhmədov AKF-nin tərkibində yer alan "Euro Fight" klubunun direktoru olmaqla yanaşı, "Premium Travel" şirkətinin rəhbəridir.

*AMADA*

# Ölkəmizdə ilk dəfə Ədalətli İdman Günü qeyd olunub

Azərbaycanda ilk dəfə 10 Aprel - Ədalətli İdman Günü qeyd olunub. Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda keçirilən tədbirdə Ədalətli İdman Günündən bəhs edən videoçarx nümayiş olunub.

AMADA-nın direktoru Şəfəq Hüseynli idmanda bərabərliyin qorunmasının vacibliyi, ədalətli qələbənin və "təmiz idman"ın əhəmiyyətini yüksək qiymətləndirib. AMADA-nın fəaliyyəti haqqında məlumat verən Şəfəq Hüseynli istifadəsi qadağan olunmuş preparatlardan istifadəyə qarşı görülən işlər, idmançıların maarifləndirilməsi istiqamətində həyata keçirilən layihələr və perspektivlər haqqında məlumat verib.

AMADA-nın fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri Xəzər İsayev deyib ki, artıq neçə illərdir ölkəmiz Ədalətli Oyunlar Hərəkatının fəal üzvüdür. İdmançılarımız beynəlxalq arenada uğurla çıxış edərək qələbələri ilə xalqımızı sevindirirlər. Ədalət prinsipi idmanda ən önəmli amildir. Bundan əlavə, rəqibə hörmətlə yanaşmaq və bərabər şəraitdə idman yarışları Ədalətli İdman Hərəkatının bir parçasıdır.



Sonra AMADA-nın fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Müxtəlif idman növləri üzrə qeyri-bərabər şəraitdə yarışların əyani nümayişindən sonra MOK-un baş katibinin müavini Azər Əliyev, Olimpiya çempionları Zemfira Meftaxetdinova, Fərid Mansurov, Namiq Abdullayev, AFFA-nın baş katibi Elxan Məmmədov, İsveçrənin Azərbaycandakı səfiri Filipp Stalder və digərləri ədalətli idman prinsiplərinin vacibliyi, istifadəsi qadağan olunmuş preparatların qəbulunun idmançıların karyerasındakı zərərləri barədə danışıb və bütün atletləri "təmiz idman"a səsləyiblər.

Sonda idman ictimaiyyətinin nümayəndələri və tanınmış idmançılar Ədalətli İdman Günü ilə əlaqədar hazırlanmış müxtəlif şüarlarla şəkillər çəkdiriblər.

Beynəlxalq Antidopinq Agentliyi (WADA) 10 aprel tarixini dünyada Ədalətli İdman Günü elan edib. 2013-cü il aprelin 10-da Cənubi Amerikanın 17 ölkəsinin iştirakı ilə keçirilən WADA-nın təhsil konfransında ədalətli idman təşəbbüsü irəli sürülüb. Cənubi Amerika ölkələrinin təşəbbüsünə daha sonra Avropa, ardınca isə bütün dünya ölkələri qoşulub. Hər il bu təşəbbüsə müxtəlif ölkələr qoşularaq silsilə tədbirlərə ev sahibliyi edirlər. Bu isə hərəkatın qloballaşmasına imkan yaradır. Hərəkatın sıralarının genişlənməsi dünyada "təmiz idmançılar"ın sayının artmasına, atletlərə rəqibə ədalətlə yanaşmaq və təmiz qələbə hisslərini aşılamağa böyük töhfə verir.

*Ağırlıqqaldırma*

# Aşağı Nüvədi və Piran kəndlərində yeni komplekslər istifadəyə verilib

***Azərbaycan Ağır Atletika Federasiyası (AAAF) son illərdə infrastruktur siyasətini tam sürətlə davam etdirir. Xüsusilə də regionlarda gələcək çempionların yetişdirilməsi üçün yaradılan şərait böyük əhəmiyyət kəsb etdiyindən, bu istiqamətdə atılan addımlara daha çox önəm verilir. Bu məqsədlə martın 5-də Sumqayıt və Bakıda ağırlıqqaldırma komplekslərinin açılışı edilib. AAAF və "Zirvə" İnternational Sport Clubs paytaxtdan kənarda da belə komplekslərin tikilişini davam etdirir. Belə ki, aprelin 9-u və 10-da onlardan daha ikisi istifadəyə verilib.***





Aprel ayının 9-da Lənkəran rayonunun Aşağı Nüvədi kəndində yeni ağırlıqqaldırma kompleksinin açılış mərasimi keçirilib. Regionlarda idmanın inkişafına dəstək məqsədilə həyata keçirilən layihə çərçivəsində burada müasir məkan inşa edilib. Ağırlıqqaldırma, fitnes, pouerliftinq, bodibildinq idman növləri ilə məşğul olmaq üçün hər cür şəraitə malik olan yeni zal, universallığı ilə seçilir. Burada kəndin yeniyetmə və gənc atletləri, həmçinin digər yaşlardan olan insanlar həm peşəkar, həm də həvəskar idmanla məşğul olmaq imkanına malikdirlər.

Ən müasir avadanlıqlar, ağırlıqqaldırma körpücükləri, paltardəyişmə, duş otaqları, saunası olan kompleksin həyətində voleybol meydançası da salınıb. Kompleksdə eyni zamanda 30-ya yaxın insan sağlam həyat tərzinə sadiq qalmaq üçün idmanla məşğul ola bilər.

Kompleksin açılış mərasimində əvvəlcə ənənəvi qırmızı lent kəsilib. Daha sonra, Lənkəran rayonunun idman və ictimai xadimləri, AAAF-ın vitse-prezidentləri Tofiq Heydərov və Ruslan Xanverdiyev, baş katib Rizvan Rəsulov, həmçinin məşqçilər, kənd sakinləri, digər şəxslər yaradılan şəraitlə tanış olublar. Qonaqların canlı izlədikləri məşq prosesi marağa səbəb olub.1-ci vitse-prezident Tofiq Heydərov öz çıxışında kompleksin ərsəyə gəlməsindən danışıb. O qeyd edib ki, Azərbaycanda ağırlıqqaldırma böyük inkişaf mərhələsindədir və bunda ölkə rəhbərliyinin həyata keçirdiyi idman siyasəti böyük rol oynayır. Regionlarda inşa edilən bu cür Komplekslərin əhəmiyyətini qeyd edən Tofiq Heydərov, beynəlxalq arenalarda qazanılan uğurların məhz buradan başladığını bildirib. O, zalların açılışının davam etdiriləcəyini, ölkədə ağırlıqqaldırma infrastrukturunun daima genişləndiriləcəyini vurğulayıb.

Ertəsi gün isə Lerik rayonunun Piran kəndində yeni zal idmançıların ixtiyarına verilib. Açılış mərasimində kənd və rayon ictimaiyyətinin, yerli gənclər və idman idarəsinin nümayəndələri, sakinlər, tədbirin qonaqları, həmçinin, AAAF-ın rəhbər şəxsləri iştirak ediblər. Əvvəlcə, qırmızı lent kəsilib. Universal ağırlıqqaldırma kompleksinə daxil olan qonaqlar yaradılan şəraitlə tanış olublar. Onlara məlumat verilib ki, burada məşq körpücükləri, fiziki hazırlıq və fitnesslə məşğul olmaq üçün çox sayda idman alətləri qurulub.

Bununla yanaşı, zalın həyətində 100-ə yaxın tamaşaçı tutumu olan futbol meydançası və açıq havada ağırlıqqaldırma yarışları keçirmək üçün xüsusi zona salınıb. Açılışı edilən kompleks təkcə Piran kəndinin sakinlərinin deyil, ümumilikdə, 10-dan çox ətraf kəndin ağırlıqqaldırma və digər idman növləri ilə məşğul olmaq istəyənlərin tələbatlarını ödəməyə yetərlidir. Açılış mərasimində ilk olaraq Tofiq Heydərov çıxış edərək tədbir iştirakçılarını salamlayıb.

O qeyd edib ki, regionlarda idmanın inkişafı üçün görülən tədbirlərin davamı olaraq növbəti addım məhz Piran kəndində inşa olunan bu kompleksin tikintisidir. "90-cı illərin əvvəllərində nəinki kəndlər və rayonlar, hətta böyük şəhər mərkəzlərində belə ağırlıqqaldırma komplekslərinə rast gəlmək olmurdu. Biz ağır atletlər məşq etməyə ən adi zalı belə tapa bilmirdik. İndi isə kənddə zal inşa edirik. Bu, mənim üçün böyük qürur mənbəyidir. Hələ 1996-cı ildə ümummilli lider Heydər Əliyev bizlərlə görüşəndə idmançıları zirvələrdə görmək istədiyini dedi və bunun üçün lazımi şəraitin qurulmasına diqqət yetirilməsinin vacibliyini vurğuladı. Sonra isə idmana qayğını öz üzərinə götürdüyünü bildirdi. İndi biz bunun nəticəsində Piran kəndində kompleksin açılış mərasiminə toplaşmışıq. Bu kənd çox qısa müddətdə Avropa birinciliyinin qalibi Füqan Əliyevi yetişdirib. Yeni istifadəyə verdiyimiz bu zal onun kimi çox sayda çempionun yetişməsində böyük rol oynayacaq. Federasiyanın son illərdə həyata keçirdiyi siyasət özünü bariz şəkildə göstərir. Əminik ki, yeni stasionar komplekslərin inşası bizə böyük uğurlar bəxş edəcək, Azərbaycanın dünya səviyyəsində tanıdılması prosesinə öz töhfəsini verəcək. Əvvəllər "biz Azərbaycanı idman ölkəsinə çevirməliyik" şüarını əsas tuturduqsa, indi artıq buna ehtiyac yoxdur. Çünki Azərbaycan artıq idman ölkəsidir və bunu bütün dünya bilir. Qalır zirvələri fəth etmək. Ona da, həm federasiya, həm də ölkə rəhbərliyinin yeritdiyi siyasətlə nail olacağıq. Hər kəsi yeni zalımızın açılışı münasibətilə təbrik edirəm", - deyə Tofiq Heydərov vurğulayıb.

Sonra Lerik rayon Gənclər və İdman idarəsinin rəisi Natiq İsaqov tədbirdə çıxış edib. O da öz növbəsində açılışı edilən zalı ölkəmizdə ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin layiqli davam etdirdiyi idman siyasətinin nəticəsi kimi qiymətləndirdi. Qeyd etdi ki, belə zalların çoxluğu regionda həm idmanın, həm də ümumi inkişafa mühüm təkan rolunu oynayacaq. "Mən Azərbaycan Ağır Atletika Federasiyasına gördükləri bu gözəl, xeyirxah və böyük əhəmiyyət daşıyan işə görə təşəkkür edirəm. Həm Piran kəndi, həm də ümumilikdə, Lerik rayonu üçün əlamətdar olan bu gündə biz çox sevincliyik. Buradan çox sayda beynəlxalq yarışların qalib və mükafatçıları yetişib. Yaradılan şərait isə onların sayının daha da artmasına təkan olacaq. Hər cür şəraitlə təmin olunan bu məkan idmana diqqət və qayğı baxımından əvəzsizdir. Əməyi olan hər kəsə təşəkkür edirəm" - , deyə idarə rəisi bildirdi.

Sonda tədbir bədii hissə ilə davam edib.

***AAAF-ın Mətbuat xidməti***

*Çempionlar*

## Millimizin üzvü bürünc medal qazandı

Qadın voleybolçular arasında Türkiyə Sultanlar Liqasında üçüncü yerin sahibi bəlli olub. Azərbaycan millisinin hücumçusu Polina Rəhimovanın çıxış etdiyi "Fənərbağça" "Qalatasaray"la cavab matçında qarşılaşıb. Görüş təmsilçimizin komandasının 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Polina Rəhimova qarşılaşmada 18 xal toplayıb. İlk matçda da 3:1 hesablı qələbə qazanan "sarı bülbüllər" bürünc medallara sahib olub.

Qeyd edək ki, "Fənərbaxça" növbəti mövsümdə CEV Çempionlar Liqasında mübarizə aparacaq.

## Çempion Super Liqanı məğlub başa vurdu

Qadın voleybolçular arasında Azərbaycan Super Liqasında 2016-2017-ci illər mövsümünə yekun vurulub. Çempionatın son oyun günündə keçirilən hər 2 qarşılaşma formal xarakter daşıyıb.

Əvvəlcə AVF "Lokomotiv"lə üz-üzə gəlib. "Dəmiryolçular"ın sonuncu sıranı tutacağı əvvəlcədən bəlli olduğu üçün oyunun nəticəsinin heç bir əhəmiyyəti yox idi. Bununla belə komanda son oyunda ilk və yeganə qələbəsini qazana bilib - 1:3. Çempionluğu təmin etmiş "Azərreyl" isə ikinci pillənin sahibi "Abşeron"la münasibətlərinə aydınlıq gətirib. Bu matçda da favorit məğlub olub - 1:3. Beləliklə, 110 gün davam edən turnir başa çatıb.

Yarışdan sonra mükafatlandırma mərasimi keçirilib.

AVF bürünc, "Abşeron" gümüş, "Azərreyl" isə qızıl medallarla mükafatlandırılıb.

Komandalara medalları Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti Faiq Qarayev təqdim edib.

**Super Liqa XII tur**

**15 aprel**

**AVF - "Lokomotiv" - 1:3 (18:25, 23:25, 25:14, 21:25)**

**I dövrə:** "Lokomotiv" - AVF - 0:3 (12:25, 19:25, 14:25)
**II dövrə:** AVF - "Lokomotiv" - 3:0 (25:15, 25:13, 25:16)
**III dövrə:** "Lokomotiv" - AVF - 0:3 (17:25, 17:25, 29:31)

**"Azərreyl" - "Abşeron" - 1:3 (25:12, 22:25, 21:25, 15:25)**

**I dövrə:** "Abşeron" - "Azərreyl" - 1:3 (26:24, 12:25, 15:25, 19:25)
**II dövrə:** "Azərreyl" - "Abşeron" - 3:0 (25:19, 25:16, 25:19)
**III dövrə:** "Abşeron" - "Azərreyl" - 1:3 (19:25, 25:21, 26:28, 18:25)

**Turnir cədvəli**

| | *O* | *Q* | *M* | *S* | *T* | *X* |
|---|---|---|---|---|---|---|
| *1. Azərreyl* | *12* | *11* | *1* | *34-6* | *978-735* | *33* |
| *2. Abşeron* | *12* | *8* | *4* | *28-14* | *950-827* | *25* |
| *3. AVF* | *12* | *4* | *8* | *15-26* | *845-912* | *11* |
| *4. Lokomotiv* | *12* | *1* | *11* | *3-34* | *619-918* | *3* |



## "Baku stars" birinci liqa yarışlarının qalibi olub

Qadın voleybolçular arasında Azərbaycan çempionatının birinci liqasının 2017-2018-ci illər mövsümünə yekun vurulub.

9 komandanın iştirakı ilə təşkil olunan yarışın qalibi adını "Baku stars" qazanıb. Belə ki, yığmanın sabiq üzvlərindən Alla Həsənova, Yelena Parxomenko və Şəfəq Kərimovanın yer aldığı komanda finalda "İqtisadçı" ilə üz-üzə gəlib. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmanın taleyinə tay-brekdə aydınlıq gəlib. Daha təcrübəli voleybolçulardan təşkil olunan "Baku stars" 3:2 hesabı ilə qalib gəlib və yarışın qızıl medallarına yiyələnib.

Üçüncü yer uğrunda qarşılaşma da gərgin keçib. "Azərreyl-2"- "Dəmiryolçu" matçında ikincilər daha dəqiq oynayıblar. Onlar debüt mövsümündə birinci liqanın bürünc medallarına sahib olublar.

Beləliklə, 4 ay davam edən çempionatda ilk üçlüyü müvafiq olaraq, "Baku stars", "İqtisadçı" və "Dəmiryolçu" tutub.

Mükafatlandırma mərasimində Azərbaycan Voleybol Federasiyasının birinci vitse-prezidenti Faiq Qarayev, vitse-prezident Vəsilə Abulova və veteran idmançı Elmira Ağakişiyeva iştirak ediblər.

*Velosiped*

## *"Synergy Baku"dan Mərakeşdə uğurlu çıxış*

Azərbaycanın kontinental velosiped komandası "Synergy Baku" Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı Mərakeş Turunda çıxış edib. 10 günlük yarışın 4-cü mərhələsi komandamızın uğurlu nəticəsi ilə yadda qalıb.

Yarışın ən ağır dağ mərhələsi hesab edilən 193 km-lik 4-cü günündə Azərbaycanın Elit yığma komandasının üzvü Samir Cəbrayılov dağ finişlərində hamıdan yaxşı çıxış edib. Bununla da velosipedçimiz Mərakeş turunun ən yaxşı dağ velosipedçisi üçün nəzərdə tutulan xüsusi köynəyinə sahib olub. İdmançımız 5-ci mərhələyə bu köynəklə başlayıb.

4-cü mərhələ həmçinin Azərbaycanın Elit yığmasının digər üzvü Kiril Pozdnyakovun 193 km məsafəni 3-cü sırada tamamlaması ilə yadda qalıb. Finişi 4 nəfərlik qrupda başa vuran təmsilçimiz 4 saat, 39 dəqiqə, 59 saniyə nəticə göstərib və yalnız fotofinişə əsasən 3-cü olub. Bununla da Pozdnyakov ümumi təsnifatda 13 pillə irəliləməklə 3-cü yerə yüksəlib və yarış liderindən 34 saniyə geri qalıb.



Veloturun 5-ci mərhələsində iştirakçılar 142,8 km məsafə qət ediblər. Qeyd edək ki, "Synergy Baku" bu yarışda Samir Cəbrayılov, Elçin Əsədov, Kiril Pozdnyakov, Aleksandr Polivoda, Ənvər Asanov və Elgün Əlizadə ilə təmsil ediblər.

*Badminton*



## Çempionatının qalibləri müəyyənləşdi

Aprelin 13-də ali təhsil müəssisələrinin komandaları arasında keçirilən badminton üzrə Azərbaycan çempionatına yekun vurulub.

Turnirin mükafatlandırma mərasimi Azərbaycan Texniki Universitetinin idman zalında təşkil olunub.

Azərbaycan Badminton Federasiyasının təşkilatçılığı, Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən yarışın qalibi adını turniri məğlubiyyətsiz başa vuran Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandası qazanıb.

Qalib komandaya kuboku federasiyanın vitse-prezidenti Emin Zeynalov təqdim edib. Çempionatda Azərbaycan Dövlət İqtisad Universitetinin komandası ikinci, Bakı Dövlət Universitetinin komandası isə üçüncü olub.

Turnirin qalibi 3 min, ikinci yerin sahibi 2 min, üçüncü pillədə qərarlaşan komanda isə min manat məbləğində pul mükafatı ilə təltif edilib.

Mükafatçılara Azərbaycan Badminton Federasiyası tərəfindən də diplom və medallar təqdim olunub.

## Komandamız beynəlxalq turnirdə işitrak edib

İndoneziyanın Semaranq şəhərində keçirilən badminton üzrə "USM Indonesia International Series 2018" turnirinə yekun vurulub. Turnirdə Azərbaycan badmintonçuları da çıxış ediblər. Şəxsi yarışda Ezmi Qovimuramadhoni 1/16 finalda indoneziyalı idmançı Məhəmməd Bayu Pangiszuya 0:2 (18-21,10-21) hesabı ilə uduzub.Təmsilçilərimizin qoşa yarışlarda da rəqibi indoneziyalı badmintonçular olub. Ezmi Qovimuramadhoni - Edi Reski Dviçayo cütlüyü 1/16 finalda Rian Svastedian - Amri Syahnavi tandeminə 0:2 (15-21, 14-21) hesabı ilə məğlub olub.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

## *“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Sağlam gənclik uğurlarımızın təməlidir

***“Kiçik dövlət” sayılan ailənin sağlam, fiziki cəhətdən gümrah, mənəvi cəhətdən kamil olması günümüzün vacib məsələlərindəndir. Bu vacib məsələnin həlli üçün ilk növbədə, ailə, bağça, məktəb, ali təhsil ocaqları, ümumilikdə bütün cəmiyyət var-qüvvəsini səfərbər edir. Uşaqları kiçik yaşlarından düzgün tərbiyə etmək, onların əqli və fiziki imkanlarını yüksək səviyyədə inkişaf etdirmək, gələcəkdə vətənə, xalqa layiq övlad kimi yetişdirmək ən vacib amildir.***

***Uşaq və gənclərin vətənpərvər ruhda böyüməsində, habelə hər bir fərdin şəxsiyyət kimi formalaşmasında bədən tərbiyəsi və idmanın böyük rolu var. İsveç yazıçısı Yohan Vilhelm Snelmanın gözəl deyimi var: “Gəncliyin ruhunu istifadə edilməyən bir tarla kimi özbaşına qoysanız, orada gicitkən və tikandan başqa bir şey tapa bilməzsiniz”. Həqiqətən də, cəmiyyətimizin bu günü və gələcəyi olan uşaqların mənəviyyatında hər hansı pozuntu aşkarlanarsa, bu, öz növbəsində, onun fiziki və mənəvi inkişafına mənfi təsir göstərəcək.***

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə fəal iştirak edirlər. Ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. İdmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında iştirak edərək uğurlu nəticələrə imza atırlar. İdman və bədən tərbiyəsini - hər bir sivilizasiyalı xalqda, ölkədə vətəndaşların həyat tərzinin mühüm hissəsi sayan Heydər Əliyevin arzularından biri də hər bir Azərbaycan vətəndaşının bədən tərbiyəsi və idmanla məşğul olması idi.

Dövlətin diqqət və qayğısı sayəsində ölkəmizdə idman öz yüksəliş və intibah dövrünü yaşayır. Respublikamızın hər yerində müasir Olimpiya idman kompleksləri, meydançalar, idman mərkəzləri və digər qurğular inşa edilib və edilməkdədir. Sağlamlıq insana məxsus olsa da, eyni zamanda, dövlətin, cəmiyyətin mülkiyyəti hesab olunur. Əhalinin sağlamlığı, həm də qüdrətli, sağlam dövlətin təminatıdır. Sağlam və savadlı vətəndaşlar biliyi, bacarığı, yüksək təhsil səviyyəsi ilə ölkənin mənafeyinə xidmət edirlər. Dövlət isə vətəndaşlarının qayğısına qalır, onların təhsil, məişət, sosial problemləri ilə məşğul olur.

Müasir dövrümüzdə uşaq və gənclərin fiziki və mənəvi inkişafı bütün dünyada ata və anaları narahat edən vacib məsələlərdəndir. Gənc nəslin fiziki və mənəvi cəhətdən inkişafında, onların sağlamlığının təmin edilməsində, intellektual və mədəni səviyyəsinin yüksəldilməsində, əməyə və vətənin müdafiəsinə hazır olan mərd və cəsur insanlar kimi yetişməsində, sözsüz ki, idmanın, bədən tərbiyəsinin rolu əvəzsizdir. İnsanın mənəvi və fiziki cəhətdən kamilləşməsində mühüm rol oynayan idmanın geniş miqyasda yayılması, kütləviləşməsi və yüksək səviyyədə inkişafı gənc nəslin mənəvi saflığını təmin edir.

Təcrübə göstərir ki, idman uşaqlarda çeviklik, fəallıq, sürət kimi fiziki və eyni zamanda, cəsarət, qətilik kimi mənəvi keyfiyyətləri aşılayır. Bu keyfiyyətlər onları gələcək ictimai fəaliyyətə hazırlayır, eləcə də, şüur və davranışına müsbət təsir göstərir. Elə idman növləri var ki, onlar insanın hərtərəfli inkişafı ilə yanaşı, sağlamlığının təminatında da mühüm rol oynayır. İnsan orqanizminin möhkəmlənməsini, onun qədd-qamətli, sağlam olmasını təmin edən idman növləri arasında qaçış, üzgüçülük və gimnastika son dərəcə mühüm rol oynayır.



## Velosiped sürməyin faydaları

Velosiped dünyada bir çox insanın da ən sevdiyi nəqliyyat növüdür. İstər evdə, istər idman salonunda velosiped sürmək kalori yandırmaq və formaya düşmək üçün çox yaxşı vasitədir. Uşaqlıqda velosiped sürməyən insan az-az olar. Bir sözlə, iki təkərli və faydalı nəqliyyat vasitəsinə aludəçilik hər birimizin həyatında olub. İdmanı çox sevən və bu sahədə işləyən bir insan kimi mən də velosipedimin olmasını çox istəyirəm. Velosiped sürmək, həm də ucuz başa gələn məşqdir. Evinizə bütöv bir trenajor dəsti almaq sizə baha başa gələ bilər, nəinki bir velosiped. Nizamlı edilən bütün fiziki fəaliyyətlər kimi velosiped sürmək də əzələlərinizi nizamlı işlədir, nəfəsi tənzimləyir, bədənimiz elastiklik qazanır. Bu idman növü eyni zamanda, həddindən artıq kilo almaq, xolesterol, şəkər xəstəliyi və yüksək təzyiq kimi problemlərin qarşısını alır.

Velosiped sürmək kalori yandıraraq çəkini azaltmaq üçün çox faydalıdır. Böyük əzələlər işlədiyi üçün 65 kq çəkisi olan insan bir saat ərzində orta sürətli velosipedlə təxminən 500 kalori yandırmış olur. Həm də velosipedə minmək oynaqların həddindən artıq yük qaldırmadığı üçün hər yaşda olan insanlar üçün ideal bir məşqdir. Məşq etmək sadəcə arıqlamaq deyil, eyni vaxda sağlam və formada qalmaq üçün də əhəmiyyətlidir. Nizamlı olaraq ürək damarlarını məşq etdirən insanlar daha uzun ömür yaşayırlar. Sağlam ağciyərlərə sahib olmaq astma kimi tənəffüs xəstəliklərinə qarşı mübarizədə müqaviməti gücləndirir. Orta və ya yüksək sürətli velosiped sürmək ürək döyüntüsünün sürətini artırır və formada qalmağa kömək edir.

Velosiped sürən zaman ayaqlarla pedalları çevirərkən əzələlər hərəkətdə olur. Diz əzələləri kimi böyük əzələlərin də hərəkətdə olması maddələr mübadiləsini sürətləndirir. Əzələlər hərəkət edə bilmək üçün kaloriyə ehtiyac duyur və buna görə də nə qədər çox əzələniz varsa, o qədər çox kalori yandırırsınız. Velosipedə minmək eyni vaxtda diz və ayaq biləyi əzələlərini də gücləndirir. Revmatizm və oynaq ağrılarından şikayət edənlər üçün ən yaxşı vasitə elə velosiped sürməkdir.

Avtomobilin əvəzinə velosipedlə yol qət etdiyimiz hər kilometrdə karbonmonoksid, karbondioksid, azot və benzin kimi qazlara daha az məruz qalırıq. Faydalı nəqliyyat vasitəsi olan velosipeddən istifadədə belə zəhərli qazlardan qurtulmuş oluruq. Beləliklə, velosiped sayəsində daha çox məşq edəcək, daha çox oksigen alacaqsınız. Üstəlik tıxaclarda vaxt itirmədiyiniz üçün əsəbləşməyəcək, stresdən uzaq olacaqsınız. Velosipedə minmə əsnasında edilən nizamlı və ritmik hərəkətlər insanları gündəlik həyatlarında məruz qaldıqları bütün mənfi təsirlərdən uzaqlaşdırır və rahatlaşdırır. Hərəkət halındakı bədən, 30-40 dəqiqə sonra endorfin ifraz etməyə başlayır. Bu da adamın özünü xoşbəxt hiss etməsinə səbəb olur.

Motorlu nəqliyyat vasitələri istixana qazlarının yayılmasının ən fundamental səbəbini meydana gətirir. Bir adamın bir il boyunca qısa məsafəli yollarda velosipeddən istifadə etməsi, 500 kq-dan 1 tona qədər bir miqdarda karbon qazının yayılmasının qarşısını alır. Beləliklə, velosipeddən istifadə etmək sağlamlığımıza faydalı olduğu kimi, eyni zamanda təbiəti də çirklənmədən qoruyur. Yeri gəlmişkən qeyd edək ki, bu ilin iyun ayında ölkəmiz velosiped idmanının BMX növü üzrə dünya çempionatına ev sahibliyi edəcək. Bu amil Azərbaycanda velosiped idman növünə olan diqqət və qayğıdan, eləcə də, həmin idman növünün kütləviliyinin artmasından xəbər verir.

## Fiziki və mənəvi inkişaf üçün üzgüçülük vacibdir

İnsan orqanizmi üçün faydalı idman növlərindən biri də üzgüçülükdür. İnsanın ruhi və fiziki rahatlığını ifadə edən məsəl var: “Özümü suda balıq kimi hiss edirəm”. Hətta peşəkar səviyyədə olmasa belə, üzgüçüləklə məşğul olmaq insanların ümumi həyati reflekslərini sabit vəziyyətdə saxlayır. O, xüsusən uşaqların bədən quruluşunun formalaşmasında, sağlamlığında, hərtərəfli fiziki inkişafında böyük əhəmiyyətə malikdir.

Hazırda nəinki Qərb ölkələrinin bir çoxunda, habelə qonşu Rusiyanın təhsil sistemində üzgüçülük tədris proqramına icbari daxil edilib və hətta bəzi idman dərsləri də əlavə keçirilir. Keçmişə nəzər saldıqda, görərik ki, qədim Yunanıstanda oxumağı və üzməyi bacarmayanlar həyata ən az uyğunlaşmış insanlar hesab edilirdilər. Çünki onlar üzgüçülüklə məşğul olanların intellektual cəhətdən daha yaxşı inkişaf etdiyini düşünürdülər. Sübut olunub ki, bu idman növü ilə məşğul olmaq, xüsusilə uşaqlarda özünəinam, özünə hörmət və ən əsası, qələbə iradəsini formalaşdırır. Bu gün fəxrlə deyə bilərik ki, Ramil Vəlizadə, Fuad Rəcəbli, Almaz Əliyeva, Mələk Qayıbova və İlahə Rəciyeva kimi yeniyetmə və gənclər ölkəmizi dünya arenalarında layiqincə təmsil edirlər. Ramil Vəlizadə, hətta ötən il Gürcüstanda keçirilən açıq ölkə çempionatında 400 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında bürünc medal qazanıb. Bu nümunə üzgüçülüyə maraq göstərən gənclərimizin sayının artdığını göstərir.

## Paytaxt və regionlarda yüksək şərait yaradılıb

Bölgələrdə tikilmiş olimpiya idman kompleksləri və stadionlar indi rayonların yeni atributları hesab olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurlu icrasının nəticəsidir ki, indi bir çox əyalətlərimiz Avropanın şəhər və qəsəbələrindən heç də geri qalmır, hətta müəyyən parametrlərinə görə onları üstələyir. Bu gün regionlarda geniş maddi-texniki bazaya malik idman infrastrukturları yaradılır, habelə idmançıların sosial problemlərinin həllinə dair bir sıra tədbirlər görülür. Bununla bağlı bir neçə xarakterik nümunə göstərmək yerinə düşər. Bir sıra rayonlarda (Sumqayıt, Şamaxı, Hövsan, Qazax, Qax, Şağan, Qobustan, Mingəçevir, İmişli, Salyan, Göyçay, Qusar və sair) daxil olmaqla bütün ölkə üzrə beynəlxalq standartlara malik yeni, müasir idman qurğuları, Olimpiya idman kompleksləri tikilərək istifadəyə verilib. Bu komplekslərdə istər yerli, istərsə də beynəlxalq əhəmiyyətli idman tədbirlərini keçirmək mümkündür. Komplekslərdə müasir idman qurğuları ilə təchiz edilmiş trenajor, cüdo, güləş, boks zalları, sauna, üzgüçülük hovuzları və s. fəaliyyət göstərir. Bölgələrdə inşa edilmiş bu cür idman mərkəzlərində uşaqlar və gənclər çox rahatlıqla idmanın sirlərinə yiyələnə bilirlər.

## Su İdmanı Sarayı həm də memarlıq abidəsidir

Prezident İlham Əliyev 2012-ci il avqustun 30-da Bakı şəhərində Su İdman Sarayının tikintisi haqqında sərəncam imzaladı. Bundan sonra paytaxtda su idmanı növlərinin inkişaf etdirilməsi, bu növlər üzrə yerli və beynəlxalq səviyyəli yarışların təşkili onu göstərir ki, idman ölkədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. 2013-cü il aprelin 19-da Prezident İlham Əliyevin iştirakı ilə Su İdmanı Sarayının təməli qoyulub. Su İdmanı Sarayı beynəlxalq və yerli əhəmiyyətli yarışların keçirilməsi üçün nəzərdə tutulan idman kompleksidir. Arena 2015-ci ildə, I Avropa Oyunları ərəfəsində istifadəyə verilib. Kompleks təkcə respublikamızda deyil, ümumiyyətlə, beynəlxalq miqyasda ən möhtəşəm su idmanı mərkəzlərindən biridir. İlk Avropa Oyunlarında burada keçirilən su idman yarışları dünya idman ictimaiyyətinin diqqət mərkəzində idi. Üzgüçülük, su polosu, sinxron üzgüçülük, suyatullanma kimi yarışlarda minədək idmançının iştirakı Bakı-2015 Avropa Oyunlarının ən maraqlı məqamı kimi yadda qaldı. İdmançılarımız da bu idman növlərində çıxış etdilər və gələcək Avropa və dünya səviyyəli yarışlar üçün zəngin təcrübə topladılar. Dünyanın ən mötəbər idmançılarının iştirak etdiyi bu yarışda idmançılarımız yarımfinala düşdülər. Su İdmanı Sarayında gənc idmançıların yetişdirilməsinə xüsusi önəm verilir.

Su İdmanı Sarayının ikinci zalında həvəskarlar və uşaqlar üçün üzgüçülük hovuzları inşa edilib. Burada peşəkar məşqçilərin rəhbərliyi altında uşaqlar üçün xüsusi təlim qruplarda keçirilir. Bu da uşaqlara üzgüçülüyün sirlərini daha tez öyrənməyə imkan yaradır. Belə ki, kompleksdə uşaqlar 6 yaşından başlayaraq qruplara qəbul edilirlər. Həftədə 3 dəfə olmaqla, 45 dəqiqə müddətində təşkil edilən dərslərdə uşaqlara üzgüçülüyün sirləri öyrədilir. Kompleksin məşqçisi Nurəli Məmmədov bildirir ki, Su İdmanı Sarayında təşkil edilmiş kurslara idman qrupları, müalicəvi, akvoaerobika daxildir. “Məşqlər üç yaş (6-9, 9-12 və 12-15 yaşlar) qrupu üzrə keçirilir. Biz gələcəkdə onları respublika və beynəlxalq səviyyəli yarışlara hazırlayırıq. Əminik ki, bu idman sarayında peşəkar idmançılar yetişdirəcəyik. Onlar gələcəkdə ölkəmizi beynəlxalq arenalarda yüksək səviyyədə təmsil edəcəklər”, - deyə o, gələcəkdə bu idman obyektinin özünü qaliblər arenası kimi doğruldacağına inandığını bildirir.

## Üzgüçülükdə uğurlarımız artır

Çarlz Meldran, Conni Veysmüller, Don Şullander, Don Frezer, Aleksandr Şumin, Vladimir Sannikov, Henri Teller və sair kimi üzgüçülər müxtəlif dövrlərdə ən mötəbər beynəlxalq yarışlarda böyük nailiyyətlər qazanıb, bu idman növünün populyarlaşmasında əvəzsiz xidmətlər göstəriblər. Bu gün Olimpiya, dünya və panamerika yarışları kimi beynəlxalq turnirlər daxil olmaqla, 57 qızıl, 11 gümüş, 3 bürünc medal qazanan amerikalı üzgüçü Maykl Felps bütün idmançılara əsl nümunədir. Azərbaycanda da belə idmançıların ərsəyə gəlməsi üçün hər cür şərait yaradılıb. Üzgüçülük üzrə ölkəmizin nailiyyətləri də getdikcə artır. XIV London Yay Paralimpiya Oyunlarında üzgüçümüz Natali Pronina 200 m məsafəyə kompleks, 100 m məsafəyə arxası üstə, 100 m məsafəyə sərbəst üsulla üzmə yarışlarında 3 gümüş medala sahib çıxıb. Boris Kirillov isə 2013-cü ildə İndoneziyanın Palembanq şəhərində keçirilən III İslam Həmrəyliyi Oyunlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Rio-2016 Yay Paralimpiya Oyunlarında Dmitri Saley 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışlarında ölkəmizə gümüş medal qazandırıb. Bundan başqa, XXXI Yay Olimpiya Oyunlarının üzgüçülük yarışlarında ölkəmizi təmsil edən idmançılardan biri Fatimə Alkərəmova idi. İdmançımız yarışda 59,43 saniyə nəticə ilə, 48 idmançı arasında 41-ci nəticə göstərdi. Bu nəticəni olimpiadanın ən gənc iştirakçılarından biri olan 14 yaşlı Fatimə üçün uğur saymaq olar. Qeyd edək ki, Fatimə Alkərəmova Dubayda üzgüçülük üzrə beynəlxalq turnirdə müxtəlif üsullarla üzmə yarışlarında 1 gümüş və 3 bürünc medala sahib olub.

Rio-2016-da Azərbaycan avarçəkmə üzrə yığmasının müstəqillik tariximizdə ilk dəfə, özü də iki medalın əldə etməsi bu idman növündə inkişafın bariz nümunəsi idi. Medallardan birini - gümüş mükafatı Valentin Demyanenko, digərini - bürünc medalı İnna Osipenko-Radomska qazanıb. Hər iki idmançı Mingəçevir şəhərində təlim keçir. Bu da təbii ki, regionlarımızda idmanın sürətli inkişafının göstəricisidir.

## İdman gimnastikadan başlayır

İdman gimnastikadan başlayır. Yəni insanın fiziki sağlamlığının əsasında məhz gimnastik hərəkətlər durur. Gimnastika bədənə çeviklik, güc, çəldlik, qədd-qamət, gözəllik verir, insanda igidlik və nəciblik hissləri aşılayır. Təsadüfi deyildir ki, qədim yunanlar bu növdən hərbçilərin yetişdirilməsində istifadə edirdilər. Olimpiya idman növlərindən olan gimnastika, həm də çox çətin növdür. Təcrübəli mütəxəssis, tambilinq üzrə Azərbaycan milli yığmasının baş məşqçisi Adil Hüseynzadənin sözlərinə görə, gimnastika ilə məşğul olduqdan sonra digər idman növlərində məşq etmək olduqca asandır: “Uşaqları yaş dövrü ilə əlaqədar gimnastika bölməsinə yazdırmağa gəlincə, düşünürəm ki, qızları 5, oğlanları isə 6 yaşından gimnastikaya yazdırmaq daha məqsədəuyğundur. Çünki bu yaşda onlar artıq çox şeyi anlayır, dərk edir və təbii ki, müəllimin tapşırıqlarını qaydasında yerinə yetirilər. Qızlar bioloji cəhətdən oğlanlardan fəal olmaqları ilə bərabər məşq prosesində də dözümlü və mətin olurlar. Valideyn var ki, uşağını 3 yaşından gimnastikaya gətirir. Mən bir mütəxəssis kimi bunu dəstəkləmirəm. Axı 2-3 yaşında uşaq nə başa düşür ki, müəllimin dediklərini də yerinə yetirsin?”

Bir sözlə, gimnastika idman növü uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsində xüsusi rola malikdir. Həmin növün kütləvi xarakter alması bunu bir daha sübut edir. Birinci vitse-prezident, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində gimnastika növü ilə məşğul olanların sayı daha da artıb. 2014-cü ildə istifadəyə verilən Milli Gimnastika Arenasında gimnastikanın bütün növlərində məşq etmək üçün yüksək səviyyəli şərait yaradılıb. Məlumat üçün bildirək ki, təkcə bu ayda Azərbaycan gimnastika üzrə daha 2 mötəbər idman tədbirinə ev sahibliyi edəcək. Belə ki, aprelin 23-də bədii gimnastika üzrə beynəlxalq AGF Junior Trophy turniri və aprelin 27-də bədii gimnastika üzrə FİG Dünya kuboku AGF Trophy yarışları keçiriləcək.

Düşünülmüş siyasi strategiya, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi respublikamızı dünya birliyinin layiqli, demokratik, sülhsevər dövlətlərindən birinə çevirib. Dövlətimizin beynəlxalq aləmdə mövqeləri getdikcə daha da güclənir. Əldə olunan uğurlarda, nailiyyətlərdə Azərbaycan gənclərinin də böyük payı vardır. Məhz savadlı, vətənpərvər, geniş dünyagörüşünə malik gənclərin sayəsində müstəqil Azərbaycan daha da çiçəklənəcək, iri addımlarla irəliləyəcəkdir.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

*Unutsaq, unudularıq*

*(əvvəli ötən sayımızda)*

***Daimi oxucularımız yaxşı xatırlayır ki, bir müddət əvvəl qəzetdə "Azərbaycan boksunun unudulmaz simaları" rubrikası altında yazılar dərc olunmuşdu. Biz bununla uzaq keçmişə, boksun şanlı tarixinə ətraflı nəzər salmışdıq. İndiki nəsl bir sıra boksçular, eləcə də, bəzi məqşqçilər nisbətən yaxın keçmişimizin rinq ustaları barəsində çox az məlumata malikdirlər. "Olimpiya dünyası" qəzeti uzun müddətdir ki, bu barədə yazıları öz səhifələrində dərc edir. "Azərbaycan boksunun rinq ustaları" rubrikası altında boksçularımızla bağlı yazıları yenidən oxuculara təqdim edirik.***

# Azərbaycan boksunun rinq ustaları

### Kamal Baba oğlu Babayev

Kamal Babayev 1946-cı ildə Bakı şəhərində dünyaya gəlib. 1960-cı ildə Bakı Uşaq-Gənclər İdman Məktəbində boksla məşğul olmağa başlayıb. Bir il sonra ilk dəfə Bakı birinciliyində iştirak edərək turnirin qalibi olub. O, sonrakı illərdə daha böyük həvəs və əzmlə məşqlərini davam etdirərək Azərbaycan və Ümumittifaq yarışlarında parlaq qələbələr qazanaraq güclülər sırasında yer alıb. Uzun illər respublikamızın və Sovetlər İttifaqının gənclərdən ibarət yığma komandasının üzvü olub, bir sıra beynəlxalq yarışlarda uğurlu çıxışları ilə yaddaşlarda qalıb. Kamal Babayev 1965-ci ildə SSRİ komanda birinciliyi yarışında bir neçə adlısanlı və təcrübəli rəqiblərinə qalib gəlib. İdmançımız gənclərin Avropa kuboku yarışında iştirak etmək hüququ qazanıb. Bu mötəbər yarışda (1965-1966) öz növbəti qələbələrini qazanaraq, SSRİ komandasının birinci olmasını və kubok qazanmasını təmin edib. Yarışın nəticələrinə əsasən qalib gəlmiş SSRİ komandasının üzvləri, o cümlədən Kamal Babayev qızıl medalla təltif edilib.

O, SSRİ idman ustası adına layiq görülmüşdür.

### Tahir Hüseyn oğlu Hüseynov

Tahir Hüseynov 1959-cu il iyulun 1-də Qazax rayonunun Çali kəndində dünyaya göz açıb. 1973-cü ildən Gəncə şəhərindəki "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətinin məşqçisi Çingiz Pirverdiyevin yanında boksun sirlərinə yiyələnməyə başlayıb. Bu idmançı tez bir zamanda rinqdə özünü əsl döyüşçü və klassik texnikalı boksçu kimi tanıtdı. Dəfələrlə respublika və Ümumittifaq yarışlarında uğurla çıxış edən boksçu öz mövqeyini yığma komandada möhkəmləndirərək daha mötəbər yarışlarda Azərbaycanı təmsil etmək hüququ qazandı.



1977-ci ildə SSRİ-də keçirilən və ən yüksək keyfiyyətə malik olan Gənclərin İdman Oyunlarında Tahir Hüseynov üçüncü, 1981-ci ildə isə SSRİ kuboku yarışında ikinci yerə sahib çıxıb. Yüksək idman keyfiyyətləri qazanmış gənc idmançı SSRİ idman ustası adına layiq görülüb.

O, hazırda, "Spartak" idman cəmiyyətinin Gəncə filialında məşqçi-müəllim vəzifəsində çalışır. Milli dərəcəli hakimdir.

### Mahir Hüseyn oğlu Hüseynov

Mahir Hüseynov 1960-cı il iyulun 1-də Azərbaycanın Qazax rayonundakı Çalı kəndində dünyaya göz açıb. 1974-cü ildə Gəncə şəhərində "Ehtiyat Əmək Qüvvələri idman cəmiyyətinin boks bölməsində məşqçi Çingiz Pirverdiyevin rəhbərliyi altında məşqlərə başlayan Mahir Hüseynov tez bir zamanda boksun texniki fəndlərini mənimsəyərək yarışlarda öz bacarığını nümayiş etdirməyə başlayıb.



1975-ci ildə Ümumittifaq Ehtiyat Əmək Qüvvələri İdman Cəmiyyətinin Mərkəzi Şurası birinciliyində qalib adını qazanıb. O, 1976, 1978,1980-ci illərdə bürünc, 1977,1982-ci illərdə isə həmin yarışın gümüş mükafatçısı olub. 6 dəfə Azərbaycan birinciliyi və çempionatlarının qalibi adına yiyələnib. 1977-ci ildə Qazaxıstan və Moldovada keçirilən Ümumittifaq turnirlərində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

SSRİ idman ustası, Milli dərəcəli hakim adlarına layiq görülüb. 1987-ci ildə AZDBTİA-nı bitirib. Hazırda Gəncə şəhərindəki 1 saylı UGİM-də məşqçi-müəllim vəzifəsində çalışır

### Aydın Surxay oğlu Nəsirov

Aydın Nəsirov 1965-ci il sentyabrın 11-də Gəncə şəhərində zəhmətkeş ailədə anadan olub. Boks idman növü ilə 1978-ci ildə Gəncə UGİM-də məşqçi Vaqif Şirinovun rəhbərliyi altında məşğul olmağa başlayıb. Sonralar isə Əməkdar məşqçi Çingiz Məmmədovun rəhbərliyi altında öz idman ustalığını təkmilləşdirib. Dəfələrlə respublika və Ümumittifaq yarışlarında uğurla çıxış edib. O, üç dəfə 1982,1983 və 1984-cü illərdə Ümumittifaq "Məhsul" idman cəmiyyətləri mərkəzi şurası birinciliyinin qalibi olub. 1984-cü ildə SSRİ idman ustası adına layiq görülüb.



1987-ci ildən məşqçilik fəaliyyəti ilə məşğuldur. O, əvvəlcə, "Məhsul" idman cəmiyyətində, sonralar isə 1 saylı UGİM-də məşqçilik edib və bir sıra respublika birinciliklərinin və beynəlxalq yarışların mükafatçılarını hazırlayıb.

### İlham Ağasadıq oğlu Hüseynov

İlham Hüseynov 1971-ci il iyuley 23-də Sumqayıt şəhərində anadan olub. 1982-1996 -cı illərdə Sumqayıt şəhərində "Neftçi"idman cəmiyyətinin



boks bölməsində məşqçi Vilayət İsgəndərovun nəzarəti altında boksla məşğul olub. O, bu idman növü üzrə müxtəlif illərdə dəfələrlə Azərbaycan birincilikləri və çempionatlarında uğurla çıxış edərək qalib və mükafatçılar sırasında yer alıb. Respublikanın yığma komandasının tərkibində 1989-cu ildə Gəncədə SSRİ kuboku yarışında, Ümumittifaq Həmkarlar İttifaqının Mərkəzi Şurası birinciliyində uğurla çıxış edərək qalib olub. 1994-cü ildə Avropa, 1995-ci ildə isə dünya çempionatlarında ölkəmizi təmsil edib. Litva, İrəvan, Türkiyə və Rusiyada keçirilən beynəlxalq turnirlərin qalib və mükafatçısı olub. İlham Hüseynova 1989-cu il avqustun 10-da SSRİ idman ustası adı verilib. 2010-cu ildə AZDBTİA-nı bitirib. "İnşaatçı" təlim-məşq bazasında təlimatçı vəzifəsində çalışır.

*(ardı var)*

***Tofiq Babanlı,***
***Azərbaycan Respublikasının Əməkdar idman xadimi, dosent***



# Çempiondan asan qələbə

Kişi voleybolçular arasında Azərbaycan Yüksək Liqasında əsas mərhələyə yekun vurulub. "Sərhədçi" İdman Olimpiya Mərkəzində təşkil olunan XI tur 2 komanda üçün böyük əhəmiyyət daşıyıb.

Belə ki, günün ilk matçında "Sərhədçi" ilə üz-üzə gələn MOİK mübarizəni pley-offda davam etdirmək üçün qələbə qazanmalı idi. Amma "Hərbiçilər" 2:3 hesabı ilə məğlub olsalar da, növbəti oyunun nəticəsinə əsasən, 4-cü yerdə qərarlaşıblar və son vəsiqəni əldə ediblər.

Beləliklə, kişi voleybolçular arasında Azərbaycan Yüksək Liqasında pley-off cütləri bəlli olub. Bu, müntəzəm çempionatın yekununa əsasən müəyyənləşib. Belə ki, "Sərhədçi" ilə "Neftçi"nin 2 tur əvvəlcədən qarşılaşacağı bəlli idisə, Azərbaycan çempionu "Lokomotiv"in rəqibi sonuncu - 11-ci turda dəqiqləşib. Əsas mərhələnin birincisi olan Fərid Cəlalovun komandası MOİK-lə qarşılaşacaq.

* * *

Qadın və kişi voleybolçular arasında "Çelenc Cup" yarışlarına yekun vurulub. Turnirdə Yunanıstan klublarından biri çempion olduğu halda, digəri məğlubiyyətlə üzülüb. Belə ki, qadın voleybolçuların yarışında "Olimpiakos" sensasiyaya imza atıb. Öz meydanında Türkiyənin "Bursa BŞB" klubuna 2:3 hesabı ilə uduzan yunanlar Bursada təşkil olunan qarşılaşmada 3:1 hesabı ilə qalib gələrək, qızıl medallara yiyələniblər.

## "Şahin" hərbi idman oyununun qalibləri mükafatlandırıldı

Aprelin 13-də Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissədə Gənclər və İdman Baş İdarəsi və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Şahin" hərbi idman oyununun şəhər birinciliyi keçirilib. Tədbirdə Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis əvəzi Mübariz Bəşirov, Təhsil şöbəsinin metodisti İlham Mirzəliyev çıxış edib. Onlar bu kimi hərbi idman oyunlarının mütəmadi olaraq keçirilməsinin yeniyetmə və gənclərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə, ordu sıralarına hazırlanmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Qeyd olundu ki, görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi respublikamızda ordu quruculuğu sahəsində də mühüm tədbirlərin həyata keçirilməsinə, cəbhədə vəziyyətin müsbət istiqamətdə dəyişməsinə təkan verdi. Silahlı Qüvvələrə göstərilən diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, peşəkar və vətənpərvər şəxsi heyət formalaşdırıldı. Yarışın səkkiz mərhələsi üzrə gedən gərgin mübarizədən sonra Təbiət Elmləri Təmayüllü Gimnaziyanın komandası şəhər birinciliyinin qalibi olub. 1 nömrəli tam orta məktəbin komandası II, 17 nömrəli tam orta məktəbin komandası III yerə layiq görülüb. Qeyd edək ki, I yerin qalibi Xaçmaz rayonunda keçiriləcək zona mərhələsində iştirak edəcək.

## Masallıda futbol üzrə açıq rayon birinciliyinə start verilib

Masallı Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Banbaşı kənd stadionunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş futbol üzrə açıq rayon birinciliyinə start verilib. Yarışın açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Camal Manafov, kənd ağsaqqalı Nadir Adıgözəlov, veteran-idmançı Balayar İbayev və başqaları çıxış ediblər. Onlar ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısında əvəzolunmaz xidmətlərindən danışıb, idmançılara qələbə sevinci arzulayıblar. Qeyd edək ki, 12 komandanın iştirakı ilə keçirilən açıq rayon birinciliyi mayın 9-da başa çatacaq.

# Tərlan Həsənovun "Cüdo" kitabı işıq üzü görüb

Əməkdar məşqçi, cüdo üzrə V dan Tərlan Həsənov "Cüdo" kitabı ilə oxucuların görüşünə gəlib. Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə ərsəyə gələn bu vəsait cüdo idman növünün inkişafı, cüdoçuların hazırlanmasında tədris-məşq prosesinin təkmilləşdirilməsi və onlara yeni qaydaların aşılanması məqsədilə hazırlanıb. Uşaq-gənclər idman məktəbləri, idman cəmiyyətləri, klublar və bölmələrində fəaliyyət göstərən cüdo məşqçi-müəllimləri üçün nəzərdə tutulan toplu Gənclər və İdman Nazirliyi, eləcə də, Təhsil Nazirliyinin normativ sənədləri və idman məktəblərinin nizamnaməsi əsasında hazırlanıb.

Kitabda idmançının hazırlığı, məşq prosesinin planlaşdırılması, təşkili, keçirilməsi, məzmunu və digər məsələlər haqqında müfəssəl məlumat verilib. Bu idman növündəki 45 illik məşqçilik təcrübəsindən yararlanan müəllif vəsaitin hazırlanmasında respublika cüdoçularının qabaqcıl təlimi və məşq təcrübəsi, gənc idmançıların hazırlığı məsələlərində elmi-tədqiqatın nəticələri, idman təbabəti, fiziki tərbiyə nəzəriyyəsi və metodikası, pedaqogika, psixologiya, gigiyena və digər sahələrin səmərəli təcrübəsindən məharətlə istifadə etməyi bacarıb.




# Vladimir Kramnik "Shamkir Chess 2018" super turnirində iştirak etməyəcək

***Beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan "Shamkir Chess 2018" super turnirində iştirakçıların siyahısında dəyişiklik edilib.***



Sabiq dünya çempionu Vladimir Kramnik Təşkilat Komitəsinə məktub ünvanlayaraq, Berlində keçirilən iddiaçılar turnirindən sonra istirahətə ehtiyacı olduğunu qeyd edib. Buna görə də sabiq dünya çempionu "Shamkir Chess 2018" turnirinin Təşkilat Komitəsindən başqa şahmatçı ilə əvəz olunmasını xahiş edib. Yarış iştirakçılarına uğurlar arzulayan Vladimir Kramnik növbəti illərdə Azərbaycanda keçiriləcək turnirlərdə böyük məmnuniyyətlə mübarizə aparacağını yazıb.

Beləliklə, Vladimir Kramnik Şəmkirdə keçiriləcək Vüqar Həşimov memorialında iştirak etməyəcək. Onun əvəzinə turnirdə Polşa millisinin üzvü Radoslav Voytaşek (2744) mübarizə aparacaq.

Super turnirdə şahmat üzrə hazırkı dünya çempionu, "Shamkir Chess" turnirinin ikiqat qalibi, FİDE reytinqində ilk pillədə qərarlaşan Maqnus Karlsen (Norveç, 2843), sonuncu iddiaçılar turnirinin iştirakçısı, Çin təmsilçisi Dinq Liren (2778), Dünya Kubokunun qalibi, şahmat tacı uğrunda matçın iştirakçısı Sergey Karyakin (Rusiya, 2778), hollandiyalı Aniş Qiri (2777), FİDE versiyası üzrə dünya çempionu bolqarıstanlı Veselin Topalov (2749), çexiyalı David Navara (2745) iştirak edəcəklər.

Azərbaycanı Vüqar Həşimov memorialında "Shamkir Chess" super turnirinin ikiqat qalibi, üçqat Avropa çempionu, rapid üzrə dünya çempionu, FİDE reytinqində ikinci pillədə qərarlaşan Şəhriyar Məmmədyarov (2814), üçqat Avropa çempionu, dünya çempionatının bürünc mükafatçısı Teymur Rəcəbov (2748) və üçqat Avropa çempionu, blits üzrə Avropa çempionu Rauf Məmmədov (2704) təmsil edəcəklər.

Turnirin təntənəli açılış mərasimi aprelin 18-də Şəmkirdəki Heydər Əliyev Mərkəzində keçiriləcək. İsveçrə sistemi üzrə doqquz turdan ibarət olacaq yarışa aprelin 28-də yekun vurulacaq.

# F U T B O L



## "Neftçi"dən əzmkar qələbə

Aprelin 12-də futbol üzrə Azərbaycan kubokunda yarımfinal mərhələsinə start verilib. Eyni gündə mərhələnin iki qarşılaşması təşkil olunub. İlk oyun Bakıda keçirilib. Çempionatda heç bir iddiası qalmayan, daha çox Premyer Liqadakı yerini qorumağa çalışan "Keşlə" öz meydanında "Sumqayıt"ı qəbul edib. Mövsümün ikinci yarısında oyununda canlanma yaranan rəqiblərin "İnter Arena"dakı qarşılaşması Yuri Maksimovun "Keşlə"ylə Azərbaycan kubokunda debütü olub. Ukraynalı mütəxəssis ilk oyunundaca qələbə qazanıb. Görüş meydan sahiblərinin 1:0 hesablı qalibiyyəti ilə yekunlaşıb.

Bu oyunun ardından "Qəbələ" doğma azarkeşləri önündə "Neftçi" ilə üz-üzə gəlib. Həm çempionat, həm də kubokda qitə miqyaslı turnirlərə vəsiqəyə iddialı komandaların mübarizəsi maraqlı olub.

Səfərdə 2:1 hesablı qələbə qazanan bakılılar final yolunda inamlı addım atıblar.

### Azərbaycan kuboku

**Yarımfinal mərhələsi, ilk oyunlar**

12 aprel (cümə axşamı)

**"Qəbələ" - "Neftçi" - 1:2**
**Qollar:** Monroz, 90+1 - Lukas Qomes, 29; Namiq Ələskərov, 45
***Qəbələ şəhər stadionu.***

**"Keşlə" - "Sumqayıt" - 1:0**
**Qol:** Sezar Meza kolli, 90+1
***"İnter Arena".***

### *Komandamız son oyununu keçirdi*

19 yaşınadək qızlardan ibarət Azərbaycan millisi Avropa çempionatının elit-raundunun III qrupunda son oyununu keçirib. Ev sahibi Finlandiya ilə qarşılaşan yığmamız 0:4 hesabı ilə məğlub olub. UEFA qarşılaşmanın statistik göstəricilərini açıqlayıb. Vüqar Əsgərlinin yetirmələri rəqibindən aşkar geri qalıblar. Qapı istiqamətindəki ümumi zərbə sayında bu fərq daha aşkar hiss olunub - 2:30.

Qeyd edək ki, millimiz ilk 2 görüşdə Fransa (0:6) və Belçikaya (1:5) böyük hesabla uduzmuşdu.

### *"Qəbələ"dən böyükhesablı qələbə*

AFFA-nın təşkilatçılığı ilə aşağı yaş qrupları üzrə liqalarda növbəti matçlar keçirilib. Gənclər Liqasında "Sumqayıt"ı qəbul edən "Qəbələ" böyükhesablı qələbə qazanıb - 4:1.

Bölgə təmsilçisi 20 matçda 52 xal toplayıb və 1-ci pillədə qərarlaşıb. "Qəbələ"nin U-17 komandası evdə "Neftçi"yə məğlub olub - 0:1. 27 görüşdə 67 xal yığan kollektiv yarışın lideridir.

Hesabat turunda istirahət edən U-16 23 oyunda topladığı 55 xalla turnir cədvəlinə başçılıq edir. Səfərdə "Kəpəz"ə 0:2 hesabı ilə məğlub olan U-15 23 görüşdə 58 xal toplayıb. "Qırmızı-qaralar" çempionatın vahid lideridir.

U-14 "Qarabağ" üzərində qələbə qazanıb - 2:1. 21 qarşılaşmadan sonra 54 xala malik komanda Paytaxt zonasının lideridir. U-13 "Səbail"ə 1:2 hesabı ilə uduzub. 20 oyunda 47 xal toplayan "Qəbələ" Paytaxt zonasında 3-cüdür.

Qızlar arasında Yüksək Liqada keçirilən "Qəbələ" - "Sumqayıt" oyununda qalib müəyyənləşməyib - 1:1. 13 matçda 32 xal toplayan komanda 2-ci pillədə qərarlaşıb.

### *Yarımfinal mərhələsinin cütlükləri müəyyənləşdi*

Aprelin 13-də İsveçrənin Nyon şəhərində futbol üzrə UEFA Çempionlar Liqasının yarımfinal mərhələsinin püşkatma mərasimi keçirilib. UEFA-nın mənzil-qərargahında keçirilən tədbirdə qitənin ən nüfuzlu klub turnirinin 4 iştirakçısı 2 cütlük təşkil edib. Püşk yarımfinala vəsiqə qazanan İngiltərənin "Liverpul", İtaliyanın "Roma", İspaniyanın "Real Madrid" və Almaniyanın "Bavariya" komandaları arasında atılıb. Püşkün nəticələrinə əsasən, yarımfinalda "Bavariya" və "Real Madrid", həmçinin "Liverpul" və "Roma" komandaları qarşılaşacaqlar.

Mərasimində UEFA Çempionlar Liqasının kuboku bu turnirin final matçının səfiri, Ukrayna milli komandasının baş məşqçisi Andrey Şevçenkoya təqdim edilib.

UEFA Avropa Liqasının yarımfinal mərhələsinin ilk oyunu "Liverpul" - "Roma" komandaları arasında olacaq. Görüş aprelin 24-də keçiriləcək. Komandalar arasında cavab matçı isə mayın 1-nə təyin edilib. "Bavariya" - "Real" oyunu isə aprelin 25-nə nəzərdə tutulub. Cavab maçı isə mayın 2-də olacaq.

Turnirin final qarşılaşması isə mayın 26-da Ukraynanın paytaxtı Kiyev şəhərində oynanılacaq.

Həmin gün UEFA Avropa Liqasının yarımfinal mərhələsinin püşkatma mərasimi də keçirilib. Püşk yarımfinala vəsiqə qazanan İngiltərənin "Arsenal", Fransanın "Marsel", İspaniyanın "Atletiko Madrid" və Avstriyanın "Zalsburq" komandaları arasında atılıb.

Püşkün nəticələrinə əsasən, "Marsel" klubu ilə "Zalsburq" komandası qarşılaşacaq. "Arsenal" komandası isə "Atletiko Madrid" klubuna rəqib olub. Püşkatma mərasimində UEFA Avropa Liqasının kuboku bu turnirin final matçının səfiri, fransalı sabiq futbolçu Erik Abidala təqdim edilib.

UEFA Avropa Liqasının yarımfinal mərhələsinin ilk oyunları aprelin 26-da, cavab görüşləri mayın 3-də keçiriləcək. Final qarşılaşması isə mayın 16-da Fransanın Lion şəhərində oynanılacaq.

## Yığmamız FİFA reytinqində irəlilədi



FİFA dünya yığmalarının növbəti reytinq siyahısını açıqlayıb.

Azərbaycan millisi ötən ayla müqayisədə bir pillə irəliləyib.

Ötən ay Bakıda Belarus yığmasına bir cavabsız qolla uduzan, Antalyada Makedoniya kollektivi ilə 1:1 hesablı heç-heçə edən millimiz hazırda 245 xala 126-cı pillədə qərarlaşıb.

UEFA Millətlər Liqasındakı rəqiblərimizdən Farer adaları üç pillə irəliləyərək 94-cü, Kosovo isə 24 pillə yüksələrək 152-ci olub. Digər rəqibimiz Malta isə 185-ci yerdə qalıb.

İlk on pillədə də dəyişiklik olunub. Almaniya və Braziliya yenə ilk iki pillədə qərarlaşsa da, Belçika iki pillə irəliləyərək III sıraya qalxıb. Bu komanda Portuqaliya və Argentinanı ötüb.

Həmçinin "Top-10"da İsveçrə və Fransa iki pillə irəliləyərək İspaniyanı qabaqlayıblar. Çili isə bir pillə irəliləyərək dörd pillə geriləyən Polşanı ötüb. Cənubi amerikalılar 9-cu, Polşa isə ilk "10-luğ"un sonuncu komandasıdır.

Qeyd edək ki, qardaş Türkiyə millisi də irəliləyib. "Ay-ulduzlular" bir pillə irəliləyərək 37-ci sırada qərarlaşıblar. Dünya çempionatının təşkilatçısı Rusiya isə üç pillə geriləyib. Şimal qonşularımız 66-cı sıraya yuvarlanıblar.

## Bir görüşün tarixi, yaxud milyonların fərqli yanaşması

### *"Real"lıqla barışmayanlar və ya günah kimdədir?!*




Ötən həftənin ən yaddaqalan futbol qarşılaşması "Real" və "Yuventus" arasında oldu. Bu matç o qədər qeyri-adi hadisələrlə yadda qaldı ki, 93 dəqiqənin hər bir saniyəsi haqqında istənilən kimi danışmaq olar. Təsəvvür edirdik ki, rəqib meydanında, yəni İtaliyada (Alyans stadionu) "Real"ın vurduğu 3 cavabsız top cütün taleyini həll etmişdi. Kim düşünərdi ki, ispanlar minlərlə azarkeşin gözləri önündə aciz qalacaq, öz "etibarlı" qapısından səfərdəki qədər top çıxaracaq. Amma həyatda hər şey mümkündür. Futbol da həyatın bir hissəsidir. Çempionlar Liqası isə futbol həyatında ən böyük sınaqdır. Bu turnirdə adi komandalar çıxış etmir. Söhbət əsas mərhələdən gedir. Əgər əvvəli nəzərə almasaq...(yarışın əvvəlində futbolu zəif olan ölkələrin çempionları da bu estafetə qoşulur, sonradan ələkdən ələnir, xəlbirdən sovrulur-A.Ə). "Nəhənglərin at oynatdığı" çempionatda təsadüfi rəqib olmur. Mərhələ keçdikcə, zəiflər azır, yolu yarımçıq qoyur. Çempionların liqasında əsas "döyüşlər" 1/8 mərhələdə başlayır. Hansı komandanın biraz səhvi olursa, rəqib onu bağışlamır. Beləcə mərhələ gəlib, zirvəyə çatır. Yenə hamının tanıdığı, hamının rəğbət bəslədiyi klublar - "Bavariya", "Liverpul", "Mançester Siti", "Barselona", "Sevilya", "Yuventus" və "Real" 1/4 finalda yarışırlar. Təkrar oyun üçün formal nəticələr ilk görüşdə qeydə alınır, biz də elə bilirik ki, hər şey belə də bitəcək. Biz saydığımızı sayaq, görək klublar nə sayır?! Vəziyyət elə gətirir ki, böyük oyunlarda aşkar favorit olan "Bavariya" güclə, lap elə birtəhər "Sevilya" səddini keçir. "Liverpul" son illərin "sehrbazı" olan Quardiolanın "Mançester Siti"sini hər iki görüşdə meydandan "başı aşağı" yola salır. Öz stadionunda, rəqibin hesabına (iki topu öz qapısından öz futbolçuları keçirmişdi-A.Ə) qələbə qazanan "Barselona" "Roma"ya uduzur. Bununla da milyonlarla azarkeşin finalda "El Classiko" arzusu ürəyində qalır. "Kapitoli canavarları" ("Roma") "Qladiator"a çevrilib, bu mövsüm yerli çempionatda məğlubiyyətin nə olduğunu bilməyən "kataloniyalılar"ı arenadan məyus yola salırlar. "Barsa" buna layiq idi, yoxsa arxayınlıq və "qızıl oğlan" Messiyə güvənirdi? Möcüzə bir dəfə olur, uzağı iki dəfə... "Barsa" ötən mövsüm dünyaya PSJ-ni diz çökdürməklə möcüzə göstərmişdi. Amma bilmirdi ki, bu dəfə özü həmin möcüzənin qurbanı olacaq. Artıq dünya gördü ki, əbədi və uduzmayan, hətta zəif rəqib yoxdur. Nəhayət, ötənilin finalçılarının erkən qarşılaşması barədə mövzuya qayıdaq. 1/4 mərhələnin püşkatmasında bu cütün qalibinin kim olacağını hərə bir versiyada düşünürdü. "Real" azarkeşləri əmin idilər ki, "Yuventus" səddini keçə biləcəklər. Axı, "Real" mümkün olmayanı, mümkün edən klubdur. La Liqada bu il çempionluğu unudan, gec ayılıb, geriyə düşən "Kral klubu" ÇL-də odu söndürüb, külü ilə oynayan komanda deyil. "Yuventus" isə bir futbol brendidir. Onun böyük keçmişi, dahi futbolçuları var. İtaliya A seriyasının aşkar favoriti olan "Qoca sinyora" bu mərhələdə qələbəni niyə əldən verməli idi, axı? Onların Buffon kimi "əfsanə" qapıçısı, Kellini kimi təcrübəli müdafiəçisi və Manzukiç kimi gizli "silahı" var idi. Dibalanı və İquaini isə sözlə ifadə etmək olmur. İlk oyunda gözlənilən və gözlənilməyən nəticə hamını heyrətə saldı. "Real" Turində "Yuventus"a böyükhesablı məğlubiyyət acısını yaşatdı. Ronaldonun heç kim tərəfindən bir əsrdə vurmadığı möhtəşəm qolu dünya mediasının manşetinə, azarkeşlərin heyrətinə səbəb oldu. Bir həftə keçdi. "Santiyaqo Bernabeu" stadionuna toplaşanlar "Real"ın ədalı oynayacağına, "Qoca sinyora" yuxarıdan aşağı baxacağına ümid edirdilər. Lakin "qocalıq müdriklik deməkdir", - deyib atalar. Müdrik komanda "Kral"ın zəhmindən qorxmadı. Əksinə, ona öz yerini göstərməyə çalışdı. Erkən qol, italiyalıları ümidləndirdi. Ardınca daha iki qol və sirat körpüsü... Rəqibə həmişə güclü yanaşmaq lazımdır. Əks halda adi bir səhv böyük faciəyə çevrilir.



Dəqiqə 90+3... Böyük tamaşanın üçüncü pərdəsi və Maykl Oliverin möhtəşəm monoloqu başlayır. Buffonun "darvazası"nda bir uşağı yıxırlar. İngilis hakim bunu görür və yıxanların cəzasını kəsir. Haqlı qərar idi. Bu mənim fikrim deyil. Hamı belə deyir. Hamı deyəndə, mən futboldan anlayışı olanları nəzərdə tuturam. Yenə Ronaldo və qol. Arada veteranı - Buffonu "döyüşdən" uzaqlaşdırdılar. Niyə? O cür alicənab futbolçu nə dedi ki? Sonradan məlum oldu ki, o Maykl Oliverin ünvanına bizim üçün adi olan bir söz deyib, halbuki bu nə söyüşdür, nə də günah. Buffon "Yuventus"un əlehinə onbirmetrlik cərimə zərbəsi təyin edəndə bunları deyib: "Sənin sinəndə ürək yox, zibil qabı yerləşir". Heç bu da sözdür?! Belə sözü udmaq, ya da qulaq ardına vurmaq olmaz ki? O qədər hakimlər görmüşük ki, onun şəninə elə senzuralı, nəsihətamiz söyüşlər söyülüb ki, bunu 100 belə kartla sığortalamaq olmaz. Gəlin belə düşünək, heç o qol vurulmayıb. Komandalar əlavə vaxta yollanıblar. "Real" bu imkanı əldən verərdi ki, "Yuventus" onu mübarizədən kənarlaşdırsın? Çətin. Amma hər şey ola bilərdi. Hər saniyənin bir hökmü var. O hökmü də Maykl Oliver verdi. Bildirdi ki, "Real" növbəti mərhələyə layiqdi. "Yuventus" isə A seriyasında çıxışını gücləndirsin.

***Anar Əhmədov***

**P.S.** *Bu yazını yazarkən gözümüz püşkatmada qalmışdı ki, sağolsunlar gözümüzü yolda qoymadılar. "Real"a "Bavariya" ilə, "Liverpul"a isə "Roma" ilə görüş təyin etdilər...Bu barədə növbəti sayımızda, daha doğrusu, mayın 3-dən sonra. Çünki finalçılar həmin vaxt müəyyənləşəcək.*

# DÜNYA



# idmanı

## "Barselona"lı ulduzlardan DÇ-2030-a dəstək

"Barselona"nın ulduz futbolçuları Lionel Messi və Luis Suares DÇ-2030-un Cənubi Amerikada keçirilməsini dəstəkləyəcəklər. Cütlük Argentina, Uruqvay və Paraqvayın birgə ev sahibliyinə dəstək olmağa razılıq verib. Bunu layihənin koordinatoru Fernando Marin açıqlayıb. O, bildirib ki, Messi ilə söhbət müsbət nəticələnib və argentinalı futbolçu onlarla razılaşıb. Marin uruqvaylının da ona qoşulacağını qeyd edib.

Məlumat üçün bildirək ki, DÇ-2030 mundialların yüzilliyi ilə üst-üstə düşür. İlk turnirin ev sahibi və qalibi Uruqvay həmin vaxt finalda Argentinanı 4:2 hesabı ilə məğlub edib.

Yeri gəlmişkən, "Barselona"nın ulduz futbolçusu Lionel Messi BMT-nin Ümumdünya Turizm Təşkilatının səfiri təyin olunub.

İspaniya mətbuatının yaydığı xəbərə görə, təşkilatın baş katibi Zurab Pololikaşvili La Liqanın 31-ci turunda keçirilən "Barselona" - "Leqanes" (3:1) matçından sonra "Nou Kamp" stadionunda argentinalı hücumçunun yeni vəzifəsini açıqlayıb.

Qeyd edək ki, "Real"ın keçmiş futbolçusu Fernando Yerro və İspaniya millisinin sabiq baş məşqçisi Visente del Boske də BMT-nin Ümumdünya Turizm Təşkilatında işləyirlər.



Qeyd edək ki, PSJ Neymarı "Barselona"dan 222, Kilian Mbappeni isə "Monako"dan 180 milyon avroya transfer edib.

## Dünya çempionatına hansı ölkə daha çox bilet alıb?

Rusiyanın "Sport Express" qəzeti bu il keçiriləcək dünya çempionatına ən çox hansı ölkədən bilet alındığını açıqlayıb.

Açıqlamaya görə, siyahıya indiyədək 80 mindən artıq bilet alan ABŞ liderlik edir. İkinci yerdə 66 minə yaxın biletlə Braziliya qərarlaşıb. Kolumbiya isə 3-cü yerdədir (60 min).

Başa düşülən səbəblərə görə dünya çempionatına ən çox bileti - 796 min 875 rusiyalı azarkeş alıb. Biletlərin satışına ötən ilin sentyabr ayında start verilib.

1. ABŞ - 80 161 bilet
2. Braziliya - 65 863
3. Kolumbiya - 60199
4. Almaniya - 55 136
5. Meksika - 51 736
6. Argentina - 44 882
7. Peru - 38544
8. Çin -36 841
9. Avstraliya - 34 628
10. İngiltərə - 30 711

## PSJ avrokuboklardan kənarlaşdırılır?

UEFA PSJ klubunu cəzalandıra bilər. Buna səbəb Paris təmsilçisinin böyük məbləğlər qarşılığında sponsorluq müqavilələri imzalamasıdır.

Fransızlar Kilian Mbappe və Neymarın transferi müqabilində 400 milyon avro xərc çəkmişdi. Məsələ ilə bağlı araşdırmaya başlayan qitə futbol qurumu PSJ-nin sponsorluq anlaşmalarındakı rəqəmlərin şişirdildiyini düşünür. Belə ki, klubun müxtəlif şirkətlərlə 200 milyon avro dəyərində sponsorluq müqaviləsi bağlaması şübhələrə yol açıb.

Klubun bütün hesablarını və sənədlərini yoxlamaq qərarına gələn qurum Maliyyə Feyr-Pley qaydalarına uyğun olmayan bir şey aşkarlasa, PSJ 1 il müddətinə avrokuboklardan kənarlaşdırılacaq. Bu, baş verərsə, Fransa çempionluğuna yaxın olan klub gələn mövsüm Çempionlar Liqasında iştirak edə bilməyəcək.

## DÇ-2018-lə bağlı maraqlı qərar

Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatına həkimin resepti olduğu halda stadionlara narkotik və psixotrop maddələr keçirməyə icazə veriləcək. Bu barədə Rusiya Daxili İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Qurum Rusiya-2018 Təşkilat Komitəsi ilə birgə stadionlara insanların qadağan edilmiş maddələrlə girişi ilə bağlı qaydaları müəyyənləşdirib.

Qeyd edilir ki, həkim resepti həm rus, həm də ingilis dilində ola bilər.

## Fabio Kapello karyerasını bitirdi

İtaliyanın məşhur məşqçilərindən olan Fabio Kapello karyerasını başa vurub. Bu barədə 71 yaşlı mütəxəssisin özü açıqlama verib.

O, fəaliyyətini şərhçi kimi davam etdirəcəyini bildirib.

Qeyd edək ki, Kapello daha əvvəl İtaliyanın "Milan", "Yuventus", "Roma" və İspaniyanın "Real" klublarında, eləcə də, Rusiya və İngiltərə milli komandalarında baş məşqçi vəzifəsində çalışıb. Onun baş məşqçi kimi sonuncu işi Çində "Tszyansu Sunin" komandası olub.

O, "Milan"la dörd dəfə, "Roma" ilə bir dəfə İtaliya, "Real"la isə iki dəfə İspaniya çempionluğunu qazanıb. "Yuventus"la qazandığı iki çempionluq isə sonradan federasiyanın qərarı ilə klubun əlindən alınıb. Həmçinin Fabio Kapellonun 1994-cü ildə "Milan"la Çempionlar Liqası və UEFA Superkuboku titulu var. Məhz bu üzdən o, 1993-1994-cü illər mövsümündə Avropanın ən yaxşı məşqçisi adına sahib çıxıb.

## İbrahimoviç FİFA-nın cavabını verdi

"Los Angeles Galaxy" klubunun isveçli hücumçusu Zlatan İbrahimoviç FİFA-nın onun 2018-ci il dünya çempionatında iştirakına qadağa qoymaq planına münasibət bildirib. Onun açıqlaması "Expressen"nəşrində dərc olunub. "FİFA heç cür mənə mane ola bilməz. Hardasa olmaq istəsəm, orda mütləq olacağam. Bu milli yığmaya da aiddir: yığmada oynamaq istəsəm, belə də edəcəyəm. Bunun FİFA-ya heç bir aidiyyəti yoxdur, bu, mənim şəxsi işimdir" deyə isveçli forvard bildirib.

Xatırladaq ki, martın 3-də İbrahimoviçin DÇ-2018-i buraxa biləcəyi ilə bağlı xəbərlər yayılıb. Buna səbəb onun bu yaxınlarda bukmeyker şirkəti ilə müqavilə imzalamasıdır.

FİFA-nın intizam məcəlləsinə görə, futbolçunun mərc oyunları ilə əlaqədar hər hansı fəaliyyətlə məşğul olması qadağan edilir.

## Ən çox klub dəyişən oyunçu

41 yaşlı Uruqvay idmançısı Sebastyan Abreu Ginnesin Rekordlar Kitabına düşüb.

İdmançıya bunu təsdiq edən şəhadətlik vəsiqəsi təqdim olunub. Təqdimolunma mərasimi "Aydaks İtalyano" - "Botafoqo" oyunundan əvvəl baş tutub.

Sebastyan Abreu indiyədək karyerasında 26 klub dəyişib. Ona qədər bu rekord almaniyalı Luts Pfannenştilə aid olub. Almaniyalı futbolçu 25 kluba transfer olunub.

## Fyuri Coşuanı döyüşə çağırır



Tayson Fyuri yayda rinqə qayıtmağa hazırlaşır. İrlandiyalı boksçu bu barədə rəsmi açıqlama verəcək. Tayson Fyuri yaxın 1 il ərzində Entoni Coşua ilə rinqə çıxmaq niyyətindədir.

Xatırladaq ki, 29 yaşlı boksçu 2 il yarımdan artıq müddətdir ki, rinqlərdən uzaqdır.

## Konfrans liderləri mübarizəyə qələbə ilə başladılar

Milli Xokkey Liqasında (NHL) pley-off mərhələsi davam edir. Hesabat turunda 5 görüş keçirilib. Şərq konfransının müntəzəm çempionatı lider kimi bitirən "Tampa-Bey Laytninq" "Nyu-Cersi Devilz"i, ikinci "Boston Bryuinz" "Toronto Meypl Lifs"i məğlub edib. Gecənin sürprizi isə Vaşinqtonda qeydə alınıb. Yerli "Kepitalz" overtayma gedən matçda "Kolambus Blu Cekets"lə bacarmayıb.



## Tennisçi daha bir məşqçi ilə yollarını ayırdı



Dirsəyindən aldığı zədədən sonra əvvəlki formasını bərpa etməkdə çətinlik çəkən Novak Cokoviç şəxsi məşqçilər heyətini dəyişdirməkdədir. Serbiyalı raket ustası Andre Aqassinin ardından, Radek Ştepanekle də əməkdaşlığına son qoyub.

Şəxsi veb-saytı vasitəsilə bu barədə bəyanat yayan dünyanın sabiq bir nömrəsi Ştepaneklə çalışmaqdan zövq aldığını bildirib və dəstəyinə görə ona təşəkkür edib. Həmçinin bəyanatda Cokoviçin əvvəlki formasını bərpa etmək üçün intensiv məşqlərə başladığı da qeyd olunub.

## İdmançı akademiya açacaq

İspaniyalı tanınmış tennisçi Rafael Nadal Florida ştatında tennis akademiyası açmağı planlaşdırır.

Ehtimallara görə, akademiyada 37 tennis kortunun, bir neçə restoran və maqazinin inşası nəzərdə tutulur. Tennisçinin akademiyadan ildə 1,5 milyon dollar gəlir əldə edəcəyi söylənilir.

## Formula-1-in pilotu mexanikin ayağını sındırdı

"Ferrari" komandasının pilotu Kimi Raykonnen mexanikin maşının arxa sol təkərinin quraşdırmasının bitməsini gözləmədən qazın pedalına basıb. Təkərin zərbəsi nəticəsində Françesko Tsiqarininin ayağı sınıb.

Nəticədə yarışçı mübarizədən geri qalıb - bolid təkərdə olan nasazlıq üzündən trasdan kənara çıxıb.

Rövşən Ağayev, Rəfail Rüstəmov, Sənan Həsənov, Şakir Abışov, Şakir Məmmədov, Azər Mövsümov, Aslan Şirəliyev, Ağalar Cavadov və Murad Fərzəliyev Nizami Əhədova, həyat yoldaşı

**Mehriban xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19